www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 avqust 2024-cü il Cümə axşamı № 149 (8522) Qiymətı 60 qəpik

**Xəbər**

## Seçki kampaniyasının akkordları - kimlər geri çəkiləcək...

yazısı səh.5-də

**Gündəm**

### Azərbaycan COP29 üçün dünyaya atəşkəs çağırışı edəcək



**Elnur Soltanov:** "50-dən çox dövlət və hökumət başçısı COP29-da iştirak edəcəyini təsdiqləyib, bu rəqəmin artacağını gözləyirik, Ermənistan da dəvət olunub"

yazısı səh.4-də

### BRİCS-ə üzvlük Azərbaycana nə qazandıracaq - təhlil

yazısı səh.10-da

### İranın İsrailə qarşı "böyük səbri"- praqmatik davranış, yoxsa...

yazısı səh.7-də

### Əcnəbilərlə nikah niyə problemə çevrilib? - təhlil

yazısı səh.14-də

### Kiyevin taleyini həll edən seçkilər - Trampla Harrisin kritik yarışı başladı

yazısı səh.8-də

### Aliment problemi qadınları və məhkəmələri bezdirib - çıxış yolu

yazısı səh.13-də

### Usta-müştəri davaları - rəsmi müqavilə bağlanmalıdırmı?

yazısı səh.15-də

### Bakıda bu ərazilər sökülləcək - sakinlərlə şirkətlərin anlaşması mexanizmi necə olsun?

yazısı səh.6-da

### Məşhur maşın brendlərinin Çin variantı - tələ, yoxsa...

yazısı səh.11-də

### Rusiyada iş adamını yeniyetmə oğulluğu güllələdi

yazısı səh.6-da

### Kursk və Donbasda qırğın gedir, hər iki tərəf irəliləyir - yeganə ümid Bakıdır...

yazısı səh.12-də

# ANTİSÜLH SİYASƏTİ İRƏVANI FƏLAKƏTƏ APARIR - PUTİNİN MESAJI...

Rusiya prezidentinin Bakıdakı anonsunun pərdəarxası; Ermənistan danışıqların Moskvanın təşəbbüsü ilə bərpasına razı olacaqmı; ekspertlərdən ilginc açıqlamalar



yazısı səh.9-da

# Genofondumuz təhlükədə - doğumlar azalır, ahıllar çoxalır

Uşaqpulunun bərpası yenidən gündəmə gəlir; ekspertlər həyəcan təbili çalır; **Sahib Məmmədov:** "Vaxtında tədbirlər görülməsə, əhalinin həm yaş, həm də cins tərkibinin dəyişməsi baş verə bilər"

yazısı səh.3-də



*Zaxarova:*

**"Ermənistan Zəngəzurdan keçən kommunikasiyalara Rusiya FTX-nin nəzarətindən imtina edib"**

yazısı səh.2-də



Adil Vəliyev

*Təhsil eksperti:*

**"Xarici ölkələrin ali təhsil müəssisələrində hüquq və tibb təhsili almaq mümkündür, lakin..."**

yazısı səh.4-də



*Natiq Cəfərli:*

**"Qocalığa görə müavinətin heç olmasa minimum əməkhaqqı səviyyəsində artırılmasına ehtiyac var"**

yazısı səh.11-də

# Eldar Əzizovdan icra başçılarına xəbərdarlıq: “Bir aydan sonra...”



**Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayonları icra hakimiyyətləri başçıları və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə növbəti müşavirə keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, müşavirədə bir sıra məsələlər, o cümlədən paytaxtda aparılan əsaslı təmir, abadlıq-quruculuq, yaşıllaşdırma işlərinin vəziyyəti və digər məsələlər müzakirə edilib.

Qeyd edilib ki, ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bu gün paytaxtımız keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəlib, əhalinin həyat və mədəni səviyyəsi artıb, şəhərdə genişmiqyaslı quruculuğ işləri həyata keçirilir.

Şəhər ərazisində həyata keçirilən işlərin monitorinqlərinin nəticələri müşavirə iştirakçılarının nəzərinə çatdırılıb. Həmçinin son vaxtlar Binəqədi və Yasamal rayonlarında bu istiqamətdə pozitiv dəyişikliklərin müşahidə edildiyi qeyd edilib. Paytaxtda aparılan əsaslı təmir, abadlıq-quruculuq işlərinin sürətləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Müşavirədə qanunsuz tikililərlə bağlı məsələ ciddi müzakirə edilib və rayonlarda aparılan monitorinqlərin nəticələrinə dair görüntülər nümayiş etdirilib. Müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyəti başçısı Eldar Əzizov bildirib ki, bu gün ölkə başçısı İlham Əliyev məmurlar qarşısında ciddi tələblər qoyub, onlara təmiz əllərlə işləməyi və təvazökar olmalarını bir vəzifə kimi tapşırıb. Lakin hələ də bəzən neqativ hallar müşahidə edilməkdədir. Bununla əlaqədar rayon icra hakimiyyətlərin başçılarına ciddi xəbərdarlıq edilərək təcili tədbirlərin görülməsi tələb edilib. Bildirilib ki, BŞİH-in monitorinq qrupu tərəfindən işlərə nəzarət ediləcək və nəticələri bir aydan sonra yenidən müzakirəyə çıxarılacaq.

## “Kurska hücum Kiyev rejimi ilə hər hansı danışıqları mümkünsüz edir”

**“Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinə hücumu Kiyev rejimi ilə hər hansı danışıqları mümkünsüz edir”.**




Musavat.com xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib.

“Kiyev rejimi Kursk vilayətində törətdiyi terror aktına bəhanə axtarır, bir-birindən fərqli psevdoarqumentlər tapır. Əvvəla, Bankovayanın (TASS: Ukrayna Prezidentinin administrasiyası o küçədə yerləşir) funksionerləri Kiyevin danışıqlarda mövqelərini gücləndirmək üçün müəyyən vəzifə haqqında danışırdılar. Görünür, onlar sualı tamamilə cavabsız qoyurlar. O cür vəhşiliklərdən, mülki əhaliyə, mülki infrastruktura və dinc obyektlərə qarşı törətdikləri terrordan sonra kim onlarla danışıqlar aparacaq? Rusiya rəhbərliyinin dediklərini bir daha vurğulamaq istərdim. Ukrayna Silahlı Qüvvələrinin ərazimizi işğal etmək cəhdi apriori quldur xunta ilə hər hansı danışıqları mümkünsüz edir”, - diplomat vurğulayıb.

❑ **Nigar HƏSƏNLİ,**
**Musavat.com**



## Zaxarova: “Ermənistan Zəngəzurdan keçən kommunikasiyalara Rusiya FTX-nin nəzarətindən imtina edib”

**“İrəvanın günahı başqalarının üzərinə atmasının daha bir nümunəsi, indiki halda Rusiyanın...” APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə Ermənistan XİN-in Sergey Lavrovun Bakıda “Ermənistan 10 noyabr üçtərəfli razılaşmasını sabotaj edir” açıqlamasına şərhinə münasibət bildirərkən deyib.**

Onun sözlərinə görə, Ermənistan üçün əsas öz uğursuzluqlarına görə başqalarını günahkar çıxarmaqdır.

Zaxarova 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndini bir daha Ermənistan tərəfinə xatırladıb. Bildirib ki, kommunikasiyaların açılması üçün görülən böyük iş “İrəvanın sərhəd nəzarəti məsələlərində qeyri-bərabərliyi və Rusiya sərhədçilərinin Ermənistan və Azərbaycan tərəfində olmasını təkid etdiyi üçün dayanıb”.

Rusiya XİN sözçüsü vurğulayıb ki, beləliklə, İrəvan Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti tərəfindən nəqliyyat axınına nəzarətdən imtina edib və faktiki olaraq işçi qrupda iştirakını dondurub.



## Tanınmış vəkil reanimasiyaya yerləşdirildi

**Tanınmış vəkil Əsabəli Mustafayevin səhhəti pisləşib.**

Modern.az xəbər verir ki, bu barədə onun yaxınları məlumat veriblər. Bildirilib ki, vəkil Sumqayıtda 2 nömrəli xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib.

Qeyd edək ki, Ə.Mustafayev bir müddət əvvəl infarkt keçirib.



## İranda zəvvarların olduğu avtobus aşıb, 28 nəfər ölüb

**İranda içərisində pakistanlı zəvvarların olduğu avtobus aşıb. APA-nın İSNA-ya istinadən xəbərinə görə, İranın Yəzd vilayətindəki sərhəd-keçid məntəqəsi yaxınlığında baş verən hadisə nəticəsində 28 nəfər ölüb, 23 nəfər yaralanıb.**

Yaralılar yaxınlıqdakı xəstəxanaya çatdırılıb.

İlkin versiyaya əsasən, qəzaya nəqliyyat vasitəsinin əyləc sistemində yaranmış problem səbəb olub.

Əraziyə xilasedicilər və polis əməkdaşları cəlb edilib. Hadisənin səbəbi araşdırılır.



## Əməkdar jurnalist Nair Əliyev vəfat etdi

**Əməkdar jurnalist Nair Əliyev uzun sürən xəstəlikdən sonra vəfat edib.**

Bu barədə APA-ya mərhumun iş yoldaşları xəbər verib.

Qeyd edək ki, Nair Əliyev 1974-cü ildə anadan olub. O, uzun müddət “Exo” qəzetinin baş redaktorunun birinci müavini, daha sonra isə ölkənin bir sıra aparıcı mətbu orqanlarında çalışıb.

Mərhumun sonuncu iş yeri “Oxu.az” olub.

Allah rəhmət eləsin!

## Restoranda dizaynerin boğazı kəsildi

**Bakıda restoranda dizaynerin boğazı kəsilib.**

Modern.az xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat yayılıb. Bildirilib ki, "Ərzurum" restoranında Fuad Əliyev adlı dizaynerin boğazı kəsilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən “Report”a bildirilib ki, əməli törətməkdə şübhəli bilinən şəxslər müəyyən olunub. Onların saxlanılması istiqamətində polis əməkdaşları tərəfindən tədbirlər görülür.

## Aralıq dənizində 1024 mühacir ölüb

**Cari ilin əvvəlindən bu vaxtadək Aralıq dənizində 1024 mühacir ölüb və ya itkin düşüb.**

Modern.az xəbər verir ki, bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) məlumat yayıb.

Bildirilir ki, 2024-cü ilin əvvəlindən avqustun 17-dək Mərkəzi Aralıq dənizi marşrutu üzrə 421 qanunsuz miqrant boğularaq ölüb, 603 nəfər isə itkin düşüb. Hesabat dövründə 13 min 763 qanunsuz miqrant saxlanılaraq Liviyaya geri qaytarılıb. Onlardan 12 min 220-si kişi, 947-si qadın, 460-ı yetkinlik yaşına çatmayanlardır. 136 nəfər haqqında isə gender məlumatı yoxdur.

Qeyd edək ki, son illərdə on minlərlə insan daha yaxşı gələcək və təhlükəsiz həyat üçün Aralıq dənizindən keçərək “Köhnə qitəyə” üz tutmağa cəhd göstərir. Mərkəzi Aralıq dənizi marşrutu ən təhlükəli miqrasiya marşrutu hesab olunur.

# Genofondumuz təhlükədə - doğumlar azalır, ahıllar çoxalır

## Uşaqpulunun bərpası yenidən gündəmə gəlir; ekspertlər həyəcan təbili çalır; **Sahib Məmmədov:** "Vaxtında tədbirlər görülməsə, əhalinin həm yaş, həm də cins tərkibinin dəyişməsi baş verə bilər"

**Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ölkədə 1 milyon 347 min 534 uşaqlı ailə var. Onların 725 min 615-i şəhər yerlərində, 621 min 919-u isə kənd yerlərində yaşayır.**

Biruşaqlı ailələrin sayı 422 989-dur, onlardan 241 min 234-ü şəhər yerlərində, 181 min 755-i kənd yerlərində yaşayır.

İkiuşaqlı ailələrin sayı 557 min 814-dür, onlardan şəhərdə yaşayanların sayı 295 min 884, kənddə yaşayanların sayı isə 261 min 930-dür.

Üçuşaqlı ailələrə gəlincə, bu kateqoiyaya daxil olan ailələrin 132 min 957-si şəhər yerlərində, 123 min 304-ü kənd yerlərində yaşayır.

Son rəqəmlərə görə, Azərbaycanda 71 min 151 dörduşaqlı ailə var. Onların 37 min 58-i şəhər yerlərində, 34 min 93-ü kənd yerlərində yaşayır. Həmçinin şəhər yerində yaşayan 11 min 313, kənddə yaşayan 11 837, yəni ümumilikdə 23 min 150 ailə beşuşaqlıdır.

Altı uşağı olan ailələrə gəlincə, 9332 ailə bu kateqoriyadadır. Onların 4338-i şəhər



yerlərində, 4994-ü isə kənd yerlərində yaşayır.

Həmçinin 7 və daha çox uşağı olan ailələrin sayı da bildirilib. Belə ki, ölkədə 6837 ailə yeddi və daha çox uşaqlı ailələr arasında yer alır. Onların 2831-i şəhər yerlərində, 4006-sı isə kənd yerlərində yaşayır.

Göründüyü kimi, uşaqlı ailələrin üçdə ikisi, 1 milyon civarında ailə 1 və 2 uşaqlıdır. Təxminən 430 min ailədə cəmi 1 uşağın olması isə daha düşündürücü məsələdir.

Təbii, bu, sırf sosial məsələ ilə bağlı yaranmış tendensiyadır. Ortaya çıxan reallıqlar uşaqpulunun bərpasının vacib olduğunu göstərir. Bu tendensiya davam edərsə, çox da uzaq olmayan illərdə ölkədə demoqrafik vəziyyət təhlükəli ola bilər.

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru, hüquqşünas Sahib Məmmədov** bildirib ki, Azərbaycan əhalisinin sayı 2 milyon nəfərdən çox azala bilər. Bu proqnoz-məlumatları Azərbaycanın rəsmi statistikası əsasında qlobal analitika hazırlayıb. İnandırıcı görünməsə də tendensiya azalmaya doğrudur. Bu baş versə, proses yalnız say azalması ilə deyil, cins və yaş tərkibinin dəyişməsi ilə müşahidə olunacaq: "Azərbaycanda 1950-ci illərdən başlayaraq əhalinin doğum səviyyəsinin aşağı düşməsi müşahidə olunur. Bir qadına düşən uşaqların sayı ötən əsrin 60-cı illərinin əvvəllərində 6 nəfərə yaxın (5.0748) olub. 2024-cü ildə bu göstərici 2 nəfərdən daha aşağıdır (1.6467). Son 62 ildə azalma ümumilikdə - 67.55% təşkil edir.

Ümumdünya səviyyəsini götürəndə Azərbaycanda ümumi əhali artımında hələ ciddi bir problem yoxdur. Bir sıra Avropa ölkələri ilə müqayisə etsək, müsbət dinamika davam edir. Hətta MDB üzrə də bizdə müsbət tendensiya qalır. Amma ümumi demoqrafik proqnozlar ürəkaçan deyil. Vaxtında tədbirlər görülməsə, əhalinin həm yaş, həm də cins tərkibininin dəyişməsinə gətirib çıxara bilər. Bu da çoxsaylı ciddi problemlər yaradacaq. Hazırda İtaliyada əhalinin 22-23 faizinin yaşı 70-dən yuxarıdır. Bunun iki səbəbi var: orta ömrün daha uzun olması və əhali artımının azalması fonunda yaş tərkibinin dəyişməsi. Azərbaycanda isə İtalyadan fərqli olaraq bu rəqəm 4 faizi keçmir.

Bizdə əhalinin 64 faizi 40 yaşına çatmayanlardır. Bu çox yaxşı göstəricidir. Gənclər əhali içərisində üstünlük təşkil edir. Amma uzunmüddətli planda bu dəyişə bilər. Onun dəyişməsi əhalinin yaş tərkibinin dəyişməsinə gətirə bilər".

**Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin kafedra müdiri Üzeyir Şəfiyev deyir ki, təbii artımın azalması təkcə Azərbaycanda deyil dünyada yaşanır:** "Bu gün qlobal miqyasda bu proses gedir. Azərbaycan həm SSRİ-yə qədər, həm də o dönəmdə çoxuşaqlı ailələrin olması ilə seçilib. SSRİ dağılandan sonra hər şey tamamı ilə dəyişdi. Sərhədlər açıldı, insanlar xarici ölkələrə üz tutdular, seriallar, xarici xəbərlər əlçatan oldu. Avropanın həyat tərzi ilə tanış olmağa başladılar. Və anladılar ki, daha komfort həyat sürmək mümkündür.

Eyni zamanda keçid dövrü başladı, sosial vəziyyət çətin oldu. Bu da doğumların ailələrdə sayının azalmasına səbəb oldu. İnsanlar düşündü ki, çox uşaqdansa, az uşaq olsun, amma əvəzində keyfiyyətli şəkildə böyütsünlər, yaxşı təhsil versinlər vəs. Həmçinin insanların mədəni və təhsil səviyyəsinin artması da bu prosesə təsirsiz ötüşmədi. Mədəni səviyyə artdıqca çox uşağa deyil, az uşağa üstünlük verildi.

Uşaq pullarının kəsilməsi ilə demoqrafik siyasəti təşviq edən motivasiya qalmadı. Çətinliklər artıq gənc ailələri qorxutmağa başladı.

İndi elə gənclər var ki, evliliyin ilk iki ilində uşaq istəmirlər, sonra isə boşanırlar. Bu gün ailənin məzmun və strukturunda da dəyişikliklər edilib. Gənclər sanki sosial varisliyi təmin etmək üçün deyil, hansısa bir tələbatlarını reallaşdırmaq üçün sosial sifarişlə ailə qururlar. Ancaq ailə çox ciddi bir institutdur. Cəmiyyətin genofondu və milli təhlükəsizliyi ilə bağlı olan məsələdir. Qərb və Avropa ölkələri ənənəvi cəmiyyətləri dağıtmaq üçün ilk növbədə ailə təsisatını laxladırlar. Bu bizim cəmiyyətə də hədəflənən bir tendensiyadır.

Təbii artımı təşviqi etməsək, bizi Avropada mövcud olan və Avropanı narahat edən mexaniki artım ola bilər. Yəni miqrantlar bura axın edə və əmək bazarını tuta bilərlər.

Təbii artımın düşməsinə səbəb həm də boşanmaların nikaha nisbətən saldosunun qalxmasıdır. Boşanmalar Azərbaycanda heç vaxt olmadığı qədər artıb".

**Sosioloq deyir ki, Azərbaycanda da Türkiyədə olduğu kimi ailə fondu yaradılmalıdır:** "Bu fond yeni ailə qurmuş gənclərə faizsiz kreditlər verir. Bu kreditlər tədricən və güzəştli şərtlərlə gənc ailələr tərəfindən ödənilir. Oxşar layihələri Azərbaycanda da tətbiq etmək olar.

Gənclərin məşğulluğu da təmin edilməlidir. Çünki onlar təhsil alıb, karyera qurandan və mənzil alandan sonra ailə qurmaq istəyirlər. Gənclərin mənzil -məişət şəraitini yaxşılaşdırmaq üçün güzəştli kreditlər vermək lazımdır. Bizdə güzəştli mənzil fondundan çox az gənc ailə yararlana bilir.

Azərbaycanda ahılların sayı son 22 il ərzində təqribən 99, 4 faiz artıb. Ümumi əhalinin sayı 26, 4 faiz artıb. Bu o deməkdir ki, ahıllar artıb, yeni doğulanlar azalıb. Ölkədə 65 yaşdan yuxarı əhali 11 faiz təşkil edir. Beynəlxalq meyara görə, ölkə əhalisi içərisində ahılların sayı əgər 7-8 faizi keçirsə, bu, artıq qocalmış əhali sayılır. Azərbaycan artıq Avropa ölkələrinin çəkdiyi o əziyyətin astanasındadır.

Bunun da sadaladığımız mənfi tərəfləri var. 2023-cü ildə Azərbaycanda təbii artım əvvəlki ilə nisbətən 15 faiz aşağı düşüb. Bu, o deməkdir ki, doğumlar azalır, ahıllar çoxalır.

Müavinətlər artırılmalı, gənclərin məşğulluğu üçün tədbirlər görülməli və gənc ailələrə əlavə dəstək göstərilməlidir ki, təbii artımda maraqlı olsunlar".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**



## Azərbaycanda qızılca riski davam edir

**Hazırda qızılcaya yoluxma ilə bağlı tək-tək hallar qeydə alınır. Buna görə də valideynlər uşaqları mütləq zamanında vaksin etdirməlidirlər. APA xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva deyib.**

O bildirib ki, Azərbaycanda peyvəndlərlə idarə edilməyən xəstəliklər yox səviyyəsindədir: "Uzun illərdir ki, qızılcaya yoluxma halları da xeyli azalıb. Çox təəssüf ki, bir müddət öncə gətirilmə halları ilə qızılcaya yoluxmalar artdı. Azərbaycanda 11 infeksiyaya qarşı vaksin həyata keçirilir. Hazırda yeni peyvənd də edilir ki, bu da müsbət nəticə verir".

Heksavaksin əvvəllər uşaqlara vurulan bir neçə vaksinin birləşməsidir:

"Təxminən 6 adda infeksiyadan söhbət gedir. Tetanus, difteriya, göy öskürək, hepatit B, poliomielit və influenza virusu əleyhinə vaksindir. Hesab edirəm ki, Dünya Səhiyyə Təşkilatı tərəfindən ən uyğun hesab edilən variantdır".

O, həmçinin deyib ki, ölkədə hansısa xəstəlik yoxdursa, bu, o demək deyil ki, vaksinləri etməyə bilərik: "Qızılcanın yayıldığı dövrdə bunu müşahidə etdik. Belə ki, bir neçə il xəstəlik ciddi şəkildə azaldı, lakin gətirilmə hallar nəticəsində birdən - birə alovlandı. Bu zaman immunizasiyadan kənarda olan uşaqlar yoluxdular. Buradan belə nəticəyə gələ bilərik ki, xəstəliklərin səngiməsi peyvəndləri etdirməməyə əsas vermir. Valideynlər tövsiyə olunan peyvəndləri təqvimə uyğun vurdurmalıdırlar".

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# Yüksək bal yığan abituriyentlər hansı xarici universitetə qəbul ola bilər - şərtlər

## Təhsil eksperti Adil Vəliyev: "Xarici ölkələrin ali təhsil müəssisələrində istər hüquq, istərsə də tibb təhsili almaq mümkündür, lakin..."

**Hazırda abituriyentlərin ən gərgin dövrüdür. Onlar ixtisas seçimini ediblər və yekun nəticənin açıqlanmasını gözləyirlər. Bakalavriat səviyyəsi üzrə ali təhsil müəssisələrinə elektron ixtisas seçimi avqustun 20-də saat 08.59-da başa çatıb. Rəsmi məlumata görə, ali təhsil müəssisələrinə 82870 elektron ixtisas seçimi ərizəsi təqdim edilib. Ən çox ərizə I qrupa verilib. Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, nəticələr üç gün ərzində elan ediləcək. Elektron ixtisas seçimi ərizəsini təsdiqləməyən abituriyentlər isə müsabiqəyə buraxılmayıb.**



Adil Vəliyev

Bəllidir ki, hər il xeyli yüksək-500-550 civarında bal toplayan abituriyentlər var ki, onlar arzuladıqları ixtisaslara - hüquqşünaslıq, beynəlxalq münasibətlər, tibb, stomatologiya və s. düşə bilmirlər. Bunun obyektiv və subyektiv səbəbləri var. Qəbul imtahanlarının çətinliyi, prestijli fakültələrdə yerlərin azlığı əsas səbəblərdir. Məsələn, tibb, hüquqşünaslıq ixtisaslarının bir neçə universitetdən başqa açılmasına icazə verilmir.

Bu il isə yüksək bal toplayanlar çoxdur və xeyli 500-570 bal toplayan abituriyent istədiyi ixtisasa düşə bilməyəcək. Hansı ki, onlarının çoxunun savadı, bilik, qavrama səviyyəsi heç də 600 bal toplayanların əksərindən aşağı deyil. Sadəcə, hansısa texniki səbəblərdən - sürüşdürmə, vaxtın düzgün bölüşdürülməməsi, həyəcan səbəbindən qəbul imtahanında nisbətən az bal əldə edib.

Bəs DİM imtahanlarının nəticələri üzrə xaricdə tibb, hüquq təhsili verən universitetlərə qəbul olmaq mümkündürmü? Əgər mümkündürsə, onların diplomları gələcəkdə Azərbaycanda tanınacaqmı?

**Təhsil eksperti Adil Vəliyev "Yeni Müsavat"a mövzunu şərh edərkən qeyd etdi ki, bu il keçən ilə nisbətən yüksək bal toplayan abituriyentlərin sayından artım müşahidə olunub:** "Bu, sözsüz ki, müəyyən ixtisasların keçid balına öz təsirini göstərəcək. İstər prestijli, istərsə də digər ixtisaslarda müəyyən qədər bal artımını müşahidə edəcəyik. Düşünürəm ki, bunun əsas səbəbi valideynlərin və abituriyentlərin bal artımı ilə bağlı müəyyən qaydalardan məlumatsız olması və bu istiqamətdə maarifləndirmə işlərinin kifayət qədər aparılmamasıdır. Çünki yüksək ballı ixtisasa qəbul olma şanslarının olmadığını düşünürlər. Buna görə də bəzən 550 bal toplayan abiturient ilk sıralarda əvvəlki illərə baxır və statistikaya baxmadan 400 ballıq ixtisasları seçir. Bu ixtisaslarda da müəyyən qədər artım olur. Bu bütün qruplar üzrə demək olar ki, oxşar hal kimi görünür. Bəzi xarici universitetlər Dövlət İmtahan Mərkəzinin (DİM) nəticələrinə görə qəbul həyata keçirirlər. Məsələn, Türkiyə universitetləri. Lakin bunun üçün kifayət qədər yüksək bal toplamaq lazımdır. Xarici ölkələrin ali təhsil müəssisələrində istər hüquq, istərsə də tibb təhsili almaq mümkündür. Lakin yeni qaydalara əsasən Azərbaycana qayıtdıqda diplomun tanınması üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət etmək, DİM-in təyin etdiyi imtahanda iştirak etmək lazımdır. Tibb təhsili olanlar isə əlavə olaraq Səhiyyə Nazirliyinə müraciət etməlidirlər".

Qeyd edək ki, ali məktəblərin bakalavr pilləsində qəbul üçün elektron qaydada həyata keçirilən ixtisas seçiminin nəticələrinə görə, I ixtisas qrupu RK alt qrupu üzrə 13015 plan yeri, Rİ alt qrupunda isə 6975 plan yeri ayrılıb ki, 25.138 abituriyent tələbə olmaq üçün ixtisas seçimi edib.

II ixtisas qrupu üzrə 14550 plan yeri var ki, 18.188 abituriyent ixtisas seçimini edib.

III ixtisas qrupu DT alt qrupu üzrə 13494 plan yeri mövcuddur ki, 21, 890 abituriyent ixtisas seçimi edib. IV ixtisas qrupu üzrə 4600 plan yeri var. Bu qrupda 6785 abituriyent tələbə olmaq üçün ixtisas seçimi edib.

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"




## Azərbaycan COP29 üçün dünyaya atəşkəs çağırışı edəcək

### Elnur Soltanov: "50-dən çox dövlət və hökumət başçısı COP29-da iştirak edəcəyini təsdiqləyib, bu rəqəmin artacağını gözləyirik, Ermənistan da dəvət olunub"

**"COP prosesi zamanı bütün əsas qərarlar yekdilliklə qəbul edilməlidir. Bununla belə, yekdillik tələb etməyən, lakin bizi iqlim məsələsində irəli aparacaq təkliflər də müzakirə olunacaq".**

APA xəbər verir ki, bu barədə Azərbaycan energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov "Anadolu" agentliyinə müsahibəsində deyib.

Onun sözlərinə görə, Azərbaycan da bu xüsusda 14 təklif irəli sürüb və bu təkliflərin həyata keçirilməsi üçün yekdillik lazım deyil: "Bunları da bəzi ölkələr və ya şirkətlərlə həyata keçirə bilərik. İqlim maliyyəsi, enerji, kənd təsərrüfatı, su ehtiyatları, turizm, rəqəmsallaşma, yaşıl şəhərlər və insan resursları da Azərbaycanın təkliflərinə daxildir. COP29-da Olimpiya Oyunlarında olduğu kimi, biz bütün dünyada atəşkəsə çağırış edəcəyik".

COP29-da iştirak etmək üçün dünyanın bütün dövlət başçılarına dəvət göndərilib. Elnur Soltanov bildirib ki, 50-dən çox dövlət və hökumət başçısı COP29-da iştirak edəcəyini təsdiqləyib.

"Bu rəqəmin artacağını gözləyirik. Ermənistan da dəvət olunub", - o vurğulayıb.

Elnur Soltanov COP29-da ümumilikdə 80 minə yaxın qonağı qəbul edəcəklərini, müxtəlif günlərdə Azərbaycana müxtəlif sayda qonaqların gəlib-gedəcəyini bildirib.



## Azərbaycana suçiçəyi əleyhinə peyvənd gətirilməsi nəzərdə tutulmayıb

**Azərbaycana suçiçəyi əleyhinə peyvənd gətirilməsi hələ nəzərdə tutulmayıb. APA xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva deyib.**

"Dünyada suçiçəyi əleyhinə vaksin var. Bu vaksini milli peyvənd təqviminə salan ölkələr də var. Hazırda bu peyvəndin Azərbaycana gətirilməsi gündəmdə deyil", - deyə o əlavə edib.

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

**Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərlə bağlı deputatlığa namizədlərin təbliğat-təşviqat kampaniyası davam edir. 125 seçki dairəsi üzrə 1052 namizəd deputat seçilmək üçün mübarizə aparır. Keçmiş təcrübəyə əsaslansaq seçki günü yaxınlaşdıqca onlardan bəzilərinin ən güclü rəqibin xeyrinə namizədlikdən geri çəkiləcəyi istisna deyil.**

# Seçki kampaniyasının akkordları - kimlər geri çəkiləcək...

## Qarşıdakı günlərdə bəzi namizədlər rəqibin xeyrinə addımlar ata bilər



"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"na əsasən bu gün seçki hazırlıqları istiqamətində bir neçə prosedur yekunlaşacaq.

Belə ki, seçki bülletenlərinin hazırlanması prosesi avqustun 22-də başa çatır.

Seçki Məcəlləsinə əsasən, seçki bülletenlərinin hazırlanması prosesi səsvermə gününə ən azı 10 gün qalanadək yekunlaşmalıdır.

Sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərdə Azərbaycan Respublikasının bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi prosesi də yekunlaşmaq üzrədir. Seçki Məcəlləsinə əsasən, aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları və beynəlxalq (xarici) müşahidəçilər seçkilərdə müşahidəçi qismində çıxış edə bilərlər. Respublikanın bütün ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq, seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilə bilər. Sentyabrın 1-də keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələrin MSK-ya təqdim edilməsi prosesi avqustun 22-də başa çatacaq.

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar "exit-poll" keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi prosesi də bu gün başa çatacaq.

Seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası qaydalarına əsasən, "exit-poll" keçirmək niyyətində olan təşkilatlar səsvermə gününə azı 20 gün qalmış akkreditasiyadan keçmək barədə MSK-ya yazılı müraciət təqdim etməlidirlər. Həmin qaydalara görə, hər bir yazılı müraciətə, onun daxil olduğu gündən başlayaraq 10 gün müddətində MSK tərəfindən baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçib-keçməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir. Növbədənkənar parlament seçkiləri ilə bağlı "exit-poll" keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi prosesi avqustun 22-də başa çatacaq.

MSK isə avqustun 21-də dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün praktiki seminarlara start verib. Layihənin əsas hədəfi seçki günü məlumatlarının operativ şəkildə ictimailəşdirilməsi və beləliklə, aşkarlığın və şəffaflığın həmin gün də yüksək səviyyədə təmin edilməsidir. Seminarlar çərçivəsində dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) ümumi fəaliyyəti və yenilənərək daha da təkmilləşdirilən imkanları barədə ətraflı məlumatlandırılır, DAİS üzərindən tətbiq olunan proqram təminatlarından birbaşa və praktiki istifadə təmin edilir, eləcə də yaranan suallara yerindəcə əyani şəkildə aydınlıq gətirilir.

İnformasiya texnologiyaları üzrə mütəxəssislərə xüsusi proqram modullarından praktiki məşğələlərlə test rejimində işləməyə də şərait yaradılır ki, bu da Milli Məclisə seçkilər günü həm seçicilərin fəallığı, həm də səsvermənin nəticələrinə dair protokol məlumatlarının Mərkəzi Seçki Komissiyasına ötürülməsi üçün proqram təminatlarını dərindən mənimsəmələrinə imkan verir.

Dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssislərinin bilik, bacarıq və işgüzar vərdişlərinin gücləndirilməsində mühüm rolu olan praktiki seminarların avqustun 23-dək davam etməsi nəzərdə tutulur.

Seçki kampaniyasının monitorinqini həyata keçirən "Mənim səsim" Seçki Monitorinq Koalisiyası isə sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərin monitorinqi ilə bağlı aralıq hesabat təqdim edib.

Hesabatda müşahidəçilərimizin topladığı məlumat əsasında deyilir ki, bütün dairələrdə, məntəqələrdə seçkiyə hazırlıq işləri qənaətbəxşdir.

Sənəddə qeyd edilib ki, Azərbaycanın bütün ərazilərində seçkilərin keçirilməsi üçün 125 seçki dairəsi, dairə seçki komissiyası, 6 min 300-ə yaxın məntəqə seçki komissiyası yaradılıb.

"Ölkə ərazisində seçki prosesinin monitorinqini aparan müşahidəçilər bölgələrdə gedən prosesləri diqqətlə izləyir, məlumatlar toplayırlar. Koalisiyanın yaratdığı işçi qrup öz növbəsində seçki prosesi ilə bağlı baş verən bütün prosesləri dərindən izləməkdə, müşahidələr aparmaqla, obyektiv və subyektiv cəhətləri ətraflı şəkildə təhlil etməkdədir", - hesabatda vurğulanıb.

**"Mənim səsim" Seçki Monitorinq Koalisiyasının həmtəsisçisi Adəm İsmayıl Bakuvi bildirib ki, Milli Məclisə seçkilərin elan olunduğu gündən seçki prosesini müşahidə edirlər:** "Seçkilərdə namizədliyini irəli sürənlərin media vasitəsilə çıxışlarını, Mərkəzi Seçki Komisiyasına müraciətləri, bu müraciətlərin araşdırılması, imzatoplama vərəqələrinin verilməsi, imzatoplama kampaniyası, MSK-nın toplanılmış sənədlərin qəbuluna münasibəti və digər prosesləri izləmişik. Qənaətimiz budur ki, hər şey qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Seçkiqabağı təşviqat kampaniyasını yüksək qiymətləndirirəm. Bütün namizədlərə həm mediada, həm də yerlərdə təşviqat aparması üçün bərabər şərait yaradılıb. Heç bir manea yoxdur. Bütün məntəqələrdə təşviqat lövhələri qoyulub, namizədlərin təşviqat materialları bu lövhələrdə yerləşdirilib".

**O bildirib ki, Seçki Monitorinq Koalisiyasının ölkə ərazisi üzrə 65 seçki dairəsində seçki prosesini izləyəcək 533 müşahidəçisi fəaliyyət göstərir:** "Müşahidələrimizə əsasən deyə bilərik ki, bütün dairə seçki komissiyalarında və məntəqə seçki komissiyalarında seçkiyə hazırlıq işləri yüksək səviyyədə gedir. Seçki prosesinin təşkilinə təcrübəli, peşəkar insanlar cəlb olunub. Bununla yanaşı, respublikanın heç bir yerində imzatoplama prosesində namizədliyini irəli sürən şəxslərə maneçilik törədilməyib. Namizədlərin bir qismi avqust ayının 9-dan başlamış təşviqat kampaniyasında fəallıq göstərirlər. Tez-tez müxtəlif ərazilərdə, bölgələrdə seçicilərlə görüşür, onların problemləri haqqında ətraflı məlumatlar toplayır, qaldırılan məsələlər ətrafında müzakirələr aparırlar. Müşahidəçilər ölkənin müxtəlif ərazilərində namizədlərin keçirdiyi görüşlərə də diqqət yetirirlər. Təşviqat kampaniyasında namizədlərin seçicilərlə görüşlər keçirməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən bütün dairə seçki komissiyalarını əhatə edən yerlər ayrılıb. Namizədlər rahat şəkildə seçicilərlə görüşlər keçirə bilir".

**Koalisiyanın həmtəsisçisi MSK-nın seçkilərin daha demokratik və şəffaf keçirilməsinə şərait yaradan müsbət dəyişikliklər həyata keçirdiyini də diqqətə çatdırıb:** "Mərkəzi Seçki Komissiyası öz işini daha da təkmilləşdirir. Aşağı seçki komissiyalarının əməkdaşlarının maarifləndirilməsi işləri aparılır. O cümlədən seçicilərin maarifləndirilməsi üçün texnoloji imkanlardan istifadə edilir".

**O qeyd edib ki, vətəndaş cəmiyyəti institutları sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərin müşahidə edilməsi prosesində aktiv iştirak edirlər:** "Seçki günü ölkədə fəaliyyət göstərən QHT-ləri, vətəndaş cəmiyyəti institutları, ictimai birlikləri təmsil edən 6 min 45 nəfər müşahidəçi olacaq".

Adəm İsmayıl Bakuvi əlavə edib ki, "Mənim səsim" Seçki Monitorinq Koalisiyası ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB-nun) seçki prosesini izləmək üçün dəvət olunmuş nümayəndələri ilə iki dəfə görüş keçiriblər.

Azərbaycandakı seçki prosesi xarici jurnalistlərin də diqqət mərkəzindədir. Tanınmış italyan jurnalist Karlo Marinonun (http://eurasiatica-news.altervista.org/le-prossime-elezioni-parlamentari-straordinarie-che-si-terranno-in-azerbaigian-rivestono-una-particolare-importanza/) bloqunda, həmçinin "Farodi Roma" onlayn qəzetində (https://www.farodiroma.it/lazerbaigian-al-voto-in-settembre-per-la-prima-volta-se ggi-aperti-anche-nei-territori-gia-occupati-dagli-armeni-c-marino/) Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkiləri barədə məqaləsi dərc edilib.

**"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, müəllif regionun söz sahibinə çevrilmiş ölkəsi olan, artan siyasi nüfuzu və iqtisadi potensialı ilə seçilən Azərbaycanda parlament seçkilərinin əhəmiyyətindən bəhs edib:** "Noyabrda Azərbaycan Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Bu beynəlxalq əhəmiyyətli hadisə ilə əlaqədar ölkədə keçiriləcək parlament seçkilərinin tarixi dəyişdirilərək 2024-cü il sentyabrın 1-nə təyin edilib. Ən mühüm cəhət odur ki, seçkilər ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində - 2020-ci ilə qədər Ermənistan tərəfindən işğalda saxlanılmış ərazilərdə də təşkil olunacaq. Vaxtilə BMT tərəfdən qəbul edilmiş qətnamələrə baxmayaraq, regionda sülhün bərqərar edilməsi mümkün olmayıb. Lakin 27 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin növbəti dəfə Azərbaycan Ordusunun mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutmasına cavab olaraq əks-hücum əməliyyatına başlanılıb. Qırx dörd gün davam edən və işğal olunmuş torpaqların azad edilməsinə səbəb olan həmin silahlı münaqişədən sonra Azərbaycan Qarabağ bölgəsində sülhün əsas təminatçısına çevrilib. Azərbaycan regionda suverenliyini və milli maraqlarını qorumağı bacaran bir dövlət kimi nüfuzunu yeni səviyyəyə qaldırır. Bu səbəbdən parlament seçkilərinin də əhəmiyyəti artır".

Qeyd edək ki, tanınmış jurnalist Karlo Marino həm də İtaliya-Azərbaycan Assosiasiyasının vitse-presidenti, 2-ci Qarabağ müharibəsi haqqında kitabın müəllifidir.

Xaricdəki azərbaycanlıların diaspor təşkilatları da Azərbaycandakı seçkiləri izləyir.

"Azərbaycanın hər bir uğuru bizi sevindirir. Vətənimizdə baş verən siyasi prosesləri qürbətdə diqqətlə izləyirik. Xaricdə yaşayan azərbaycanlıların diqqət mərkəzində olacaq mühüm hadisələrdən biri də sentyabrın 1-də keçiriləcək seçkilərdir. Çünki parlament seçkiləri ilk dəfə Şuşada, Laçında və işğaldan azad olunmuş digər ərazilərdə də keçiriləcək". Bu fikirləri Niderland Krallığının Rotterdam şəhərində fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədri Elsevər Məmmədov deyib.

**BAK sədri qeyd edib ki, seçkilər hər bir xalqın ictimai-siyasi həyatında mühüm rol oynayır. Bu mənada həmin prosesə xüsusi önəm verilir:** "Biz tarixi anlara şahidlik edəcəyik. İşğaldan azad olunmuş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər bu tarixin iştirakçısı olacaqlar. Başqa ölkələrdə yaşayan azərbaycanlılar isə seçkiləri xaricdən fərəh hissi ilə izləyəcəklər. Xalqımız sülhün, demokratiyanın tərəfdarı olduğunu nümayiş etdirir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# Bakıda bu ərazilər söküləcək - sakinlərlə şirkətlərin anlaşması mexanizmi necə olsun?

## Ekspertlər hesab edir ki, yeni qanun layihəsi hazırlanmalıdır, vətəndaşlarla söhbəti tikintiyə icazə verən dövlət qurumu aparmalıdır

**Bakı yenilənir. Xeyli ərazidə köhnə tikililər, yöndəmsiz həyət evləri sökülür və yerində müasir komplekslər yaradılır, yaxud da bəzi ərazilərdə park salınır. Paytaxtın digər rayonları ilə yanaşı, Xətai rayonunda bir sıra binaların sökülməsinə hazırlıq gedir.**

Babək prospekti, eləcə də Xəqani Rüstəmov, Süleyman Vəzirov, Yavər Əliyev küçələrinin əhatəsində yerləşən yaşayış və qeyri-yaşayış sahələrinin sökülməsi nəzərdə tutulur. (Modern.az) Məlumata görə, artıq bununla bağlı hazırlıq işlərinə başlanılıb. Söküntü işləri üçün 1,7 milyon manatdan çox vəsait xərclənəcəyi gözlənilir. Burada xeyli yaşayış və qeyri-yaşayış sahəsi var.

Müşahidələr göstərir ki, ümumən Bakıda söküntü, köçürülmə işləri zamanı vətəndaşların bir çoxu isə onlara verilən kompensasiyadan narazı qalır. Hazırda Bakının bir neçə hissəsində, Nəsimi, Yasamal rayonlarında belə problemlər mövcuddur. İnsanlar onlara hər kvadratmetr üçün 1500-2000 manat arası pul ödənməsini ədalətsizlik hesab edirlər. Çünki bu qiymətə ev almaq mümkün olmur, şirkətlər elə onların evlərinin yerində tikdiyi binada mənzilin kv.m-ni 2500-3000 manata təklif edirlər...

Bir çox hallarda isə tikinti şirkətləri barbar üsullarla insanları bezdirir, evini qanunsuz uçurur və kefi istədiyi məbləği təklif edir. Sonunda isə bu narazılıqlar hökumətə yönəlir, etirazlar başlayır.

MMC-lərin belə özbaşınalıq etməsi indi adi hal alıb. Bəs bunun qarşısını almaq üçün bir mexanizm qurmaq mümkün deyilmi?

Yeri gəlmişkən, bir müddət əvvəl Bakının Nəsimi rayonu, Abbas Səhhət küçəsində sakinlərlə tikinti şirkəti arasında qalmaqal yaşanmışdı. Belə ki, qeyd edilən ünvanda “Anima” MMC-yə məxsus “Capital City” tikinti şirkəti yeni bina inşa etmək istəyirdi. Lakin sakinlər şirkətin verdiyi təkliflərlə razı deyildilər. Narazı vətəndaşlar deyirlər ki, şirkət onların evini söküb, əvəzində bina təhvil veriləndən sonra mənzil veriləcəyini vəd edir. Lakin vətəndaşlar binadan ev yox, onları qane edəcək kompensasiya tələb edir. Şirkətin verəcəyi kompensasiya isə sakinləri heç cür razı salmır.

“Musavat TV”yə danışan sakinlər bildiriblər ki, şirkət onlara heç bir xəbərdarlıq etmədən evlərinin qarşısına hasar çəkməyə çalışır. Etiraz edəndə də təzyiqlərlə üzləşirlər.



**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib ki, söküntülər daha çox iki formada aparılır:** “Birincisi, dövlət əhəmiyyətli söküntülərdir, yəni həmin ərazilərdəki torpaqların dövlət ehtiyacı üçün alınmasıdır. Digər söküntülər isə özəl sektorlar tərəfindən sökülərək daha çox onun yerinə yeni tikilən binalar inşa olunur. Dövlət əhəmiyyətli söküntülər zamanı ərazidəki daşınmaz əmlaklar və torpaq sahələri bazar qiymətləri ilə qiymətləndirilir. Vətəndaşa 20 faizdən artıq kompensasiya olaraq pul ödənilir. Yəni bu halda vətəndaşın əmlakının qiymətləndirilməsi ilə bağlı onun hər hansı bir narazılığı olarsa, təbii ki, o digər özəl qiymətləndirmə şirkətlərinə müraciət edər, öz əmlakının dəqiq bazar qiymətini çıxararaq bu məsələni məhkəmə qaydası ilə mübahisələndirə bilər. Başqa bir tərəfdən isə 2016-cı ildən başlayaraq paytaxt Bakıda pilot layihələr üzərində söküntü işləri gedir. Bu günə qədər onlarla köhnə çoxmənzilli yaşayış binaları və fərdi yaşayış evlərindən ibarət yaşayış massivləri sökülərək yeni binalarla əvəzlənib. Özəl sektorun söküntüsü zamanı onlar vətəndaşlara pul deyil, daha çox sökdükləri ərazidən daşınmaz əmlakla əvəz edirlər. Yəni vətəndaşın evi sökülürsə, ona yeni ev təhvil veriləndək 2-3 il kirayə pulu ödənilir. Daha sonra yeni tikilən binadan vətəndaşa keçmiş mənzilin ümumi sahəsindən 20 faiz daha geniş tam təmirli mənzil verilir. Təbii ki, söhbətlər zamanı bir çox narazılıqlar yaranır”.

**Ekspert əlavə edib ki, bəzi hallarda tikinti şirkətləri vətəndaşlara müəyyən problemlər yaratsalar da, bəzi hallarda da narazılıqlar vətəndaşlar tərəfindən yaradılır:** “İnsanlar ev sökülən zaman onlara verilən yeni evlərə razı qalmır və daha böyük məbləğdə pul tələb edirlər. Artıq Bakının Baş planı təsdiqlənib. 2040-cı ilə qədər baş planda nəzərdə tutulmuş ərazilər sökülərək yeni infrastrukturlar qurulacaq, köhnə binaların böyük bir hissəsi sökülərək yeni binalarla əvəzlənəcək. Əgər hər hansı bir ərazinin söküntüsü özəl deyil, dövlət tərəfindən, tikinti şirkətləri tərəfindən aparılırsa, tikinti şirkətlərinin çoxmənzilli yaşayış binalarını, yaxud fərdi yaşayış evlərindən ibarət yaşayış massivlərini məcburi sökməsi üçün mütləq şəkildə həmin ərazinin qəzalı olması ilə bağlı FHN-in rəyi olmalıdır. Əgər rəydə həmin yaşayış binası qəzalı kimi qeydə alınıbsa və qəzalılığı sübut olunubsa, birmənalı olaraq vətəndaşlar onlara yeni tikilən binalardan mənzil verilən günə qədər həmin ərazilərdən köçməlidir. Tikinti şirkətlərinin isə köçən sakinlərə götürdükləri öhdəlik müddətində yeni tikilən binalardakı mənzilləri tikib vermək onların birbaşa vəzifə borcudur. Söküntülər zamanı bəzən olub ki, tikinti şirkətləri ərazinin bir hissəsini sökürlər, köçən sakinlərə kirayə pulu ödəyirlər. Digər hissədə bəzi sakinlərin köçməməsi səbəbindən artıq söküntü və tikinti prosesi uzanır. Bu zaman tikinti şirkətləri köçən sakinlərə məcburi kirayə pullarını davamlı ödəməli olur. Başqa tərəfdən, həmin sakinlər və aidiyyəti dövlət qurumları tərəfindən binanın tikilib təhvil verilməsi ilə bağlı götürdüyü müddət öhdəliyini yerinə yetirə bilmirlər. Bu da artıq bir çox tikinti şirkətlərinin iflasa uğramasına gətirib çıxarır. O baxımdan əvvəlki illərə nisbətən hazırda paytaxtda söküntü işləri daha ləng gedir. Bunun əsas səbəbi insanlarla bu sahə ilə bağlı təbliğatın aparılmamasıdır. Bu səbəbdən artıq tikinti şirkətləri üçün köhnə binaları söküb yenisi ilə əvəzləmək maraqlı deyil. Düşünürəm ki, bu prosesin sürətlənməsi üçün yeni qanun layihəsi hazırlanmalıdır. Vətəndaşlar arasında təbliğat işləri aparılmalıdır və tikinti şirkətləri hər hansı ərazini sökəcəklərsə, həmin ərazidəki sakinlərlə danışıqlara özləri deyil, o tikintiyə icazə verən aidiyyəti qurumlar danışığa çıxmalı, onlara qarantiya verməlidir ki, narazı suallar, problemlər yaranmasın”.

Qeyd edək ki, Bakı şəhərinin yeni açıqlanan baş planında paytaxtın inkişaf əraziləri və istiqamətləri də müəyyənləşib. Yeni binalar həm köhnə binaların yerində, həm də yeni ərazilərdə inşa ediləcək.

Ümumiyyətlə, hökumətin hesablamasına görə, əhali artımını və paytaxta əhalinin axınını nəzərə alanda qarşıdakı 17 ildə şəhərdə 142 min yeni mənzilə ehtiyac olacaq. Bunun 50 mini 2027-ci ilədək, 92 min isə 2040-cı ilədək tələb olunacaq. Bu mənzillərin tikintisi üçün təqribi yerlər müəyyən edilib. Baş plan müəlliflərinin fikrincə, Böyükşor gölü və ya Ələt kimi ərazilər yeni inkişaf sahəsi olacaq.

Şəhər kənarları ilə bağlı plan belədir ki, - istifadə edilməmiş tikinti sahələrinin çoxluğunu və sıxlığın olduqca aşağı olduğu sahələri nəzərə alaraq, əhalinin təbii artımı nəticəsində yaranacaq tələbatın mövcud yaşayış məntəqələrinin “hüdudları” daxilində ödənilməsi üçün kifayət qədər yer mövcuddur.

Digər tikinti ərazisi Bakının mərkəzindəki köhnə tikililər olacaq. Şəhərin mərkəzi ərazilərində müasir standartlara cavab verməyən və kommunal infrastruktur ilə təminat baxımından çatışmazlıqların olduğu köhnəlmiş mənzil fondunun yerləşdiyi ərazilər mövcuddur. Bu gün qeyd olunan ərazilər yeni inşa olunmuş binalar və inkişaf etmiş ərazilərlə əhatə olunmuşdur. Küçə və keçidlərin dar olması səbəbindən həmin ərazilərin əksəriyyətinin lazımi səviyyədə giriş-çıxış imkanları da yoxdur.

Bununla yanaşı, kiçik məhəllələr daxilində yerləşən fərdi evlər arasındakı boş torpaq sahələri və əsasən Bakının mərkəzində yerləşən yenidən qurulacaq ərazilər (köhnəlmiş yaşayış binalarının yerləşdiyi ərazilər) mövcuddur. Amma boş torpaq sahələri əsasən özəl mülkiyyətçilərə və ya şirkətlərə məxsusdur. Buna görə, gələcəkdə mənzil tələbatını ödəmək üçün bu ərazilərdən istifadə mümkün olmaya bilər. Bunu nəzərə alaraq, Baş Plana əsasən tələbatın bir hissəsinin kənd tipli yaşayış ərazilərindəki boş sahələr hesabına ödənilməsi nəzərdə tutulur.

Ümumilikdə paytaxtda mənzilə olan tələbatın qarşılanması üçün Baş Planda təqribən 9 000 ha sahə nəzərdə tutulmuşdur ki, burada lazım olandan da artıq - yəni təqribən 200 min mənzilin tikilməsi mümkündür. Digər tələb olur ki, 2040-cı ilə qədər adam başına düşən ümumi mənzil sahəsi indiki 20,8 m2-dən 25 m2-ə qədər artırılsın.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

## Rusiyada iş adamını yeniyetmə oğulluğu güllələdi



**Moskva yaxınlığındakı Reutovda atıcılıq poliqonunda 43 yaşlı azərbaycanlı iş adamı öldürülüb. APA-nın Rusiya bürosu xəbər verir ki, hadisə ehtiyatsızlıqdan baş verib. Belə ki, azərbaycanlı Emin Quliyev atıcılıq poliqonunda 17 yaşlıq oğulluğu tərəfindən ehtiyatsızlıqdan sinəsindən karabinlə güllələnərək öldürülüb.**

Quliyev hadisə zamanl məktəbli oğulluğunun şəklini telefonu ilə çəkirmiş.

Faktla bağlı Tir (atıcılıq poliqonu) inzibatçısı 51 yaşlı Mixail Aborin saxlanılıb.

Məlum olub ki, ötən gecə 43 yaşlı iş adamı Emin Quliyev 17 yaşlı oğulluğu Dənizlə birlikdə Reutov şəhərinin Pobeda küçəsində yerləşən “Streletski” atıcılıq və idman mərkəzinə gəlib.

“Tiqr” karabinini götürüb atıcılıq məşqlərinin keçirildiyi otağa girən Emin özü atış edib və daha sonra karabini Dənizə verib.

O, oğulluğunun şəklini telefonu ilə çəkmək üçün qabağa çıxıb. Bu zaman ögey atasını görməyən Dəniz atəş xəttinə keçərək karabindən atəş açıb və ehtiyatsızlıqdan Eminin sinəsindən vurub. Kişi yerindəcə dünyasını dəyişib.

Tirin administratoru Mixail Aborin Eminə çəkiliş otağını təqdim etsə də, ona və oğulluğuna heç bir göstəriş verilməyib.

İnzibatçı 11-ci sinif şagirdinə pasportunu göstərməyi belə tələb etmədən və xidmət göstərilməsi üçün müqavilə bağlamadan atəş açmağa icazə verib.

Aborin saxlanılıb. Faktla bağlı “İstehlakçıların həyat və sağlamlığının təhlükəsizliyinə dair tələblərə cavab verməyən, ehtiyatsızlıqdan ölümlə nəticələnən xidmətlər göstərmə” maddəsi ilə cinayət işi başlanıb.

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# İranın İsrailə qarşı “böyük səbri”- praqmatik davranış, yoxsa...

## Politoloq: “Hərbi qarşıdurma son nəticədə İrana qarşı beynəlxalq koalisiyanın yaradılmasına və müdaxilə ilə üzləşməsinə gətirib çıxara bilər”

**İran İsraili vurmaqla hədələsə də, bu addımları atmır. Ekspertlər sükutun səbəbi barədə müxtəlif versiyalar səsləndiriblər. Bu arada İran “böyük səbir” göstərə biləcəyini bəyan edib.**

“İranın İsrailə qarşı cavab tədbiri üçün gözləmə müddəti uzun ola bilər”.

APA xəbər verir ki, bu barədə İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) sözçüsü Əli Məhəmməd Nayini deyib.

“Zaman bizim tərəfimizdədir və cavab üçün müddət uzun ola bilər. İranın hədəflərinə edilən heç bir hücum cavabsız qalmayıb və düşmən öz vaxtında hesablanmış və dəqiq zərbələr gözləməlidir”, - o qeyd edib.



İran reallıqları doğru dəyərləndirərək, yeni müharibəyə başlamağın ona fayda verməyəcəyini qət edərək “uzun səbr” nümayiş etdirir, yoxsa bu bir manevrdir? Digər səbəblər varmı?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov** “Yeni Müsavat”a bildirdi ki, Tehranda HƏMAS liderinin öldürülməsindən bir aya yaxın vaxt keçsə də, İran hələ İsrailə qarşı “dəhşətli qisas” cavabı verəcəyi ilə bağlı verdiyi vədini həyata keçirməyib: “İran bu müddət ərzində informasiya müharibə aparmaqla kifayətlənməkdədir. Tehranın İsrailə hücum edəcəyi barədə bəyanatları ABŞ-a imkan verdi ki, bölgəyə hərbi qüvvələr yerləşdirsin və bu regionu tam nəzarətinə alsın. İran İsrailə birbaşa hücumun qarşılığının nəticələrini anlayır və onu da başa düşür ki, əvvəlki hücumdan fərqli olaraq bu dəfə qisas əməliyyatına başlasa, müharibə təhlükəsi ilə üzləşə bilər. İranda HƏMAS liderinin öldürülməsi rejimin beynəlxalq və regional nüfuzunu ciddi şəkildə zədələsə də, bunun İsrailə hücum etməklə bərpasına nail olunacağı mümkün görünmür. İran bu vasitə ilə əgər məqsədinə çatacağına inansaydı, çoxdan bunu edərdi. Çünki hər ötən gün İranın ziyanınadır. İran proseslərdən uzaqlaşdırılır. Artıq məlumdur ki, Fələsin məsələsində, İsrail-HƏMAS qarşıdurmasında əsas oyunçular və vasitəçilər Misir və Qətər, Səudiyyə Ərəbistanıdır. Vaşinqton İranın ümumiyyətlə həll məsələsinə müdaxilə edə bilmir.

Tehran rejimi iki ən pis variantdan birini seçməlidir. Ya İsrailə hücum edərək müharibəyə cəlb olunmalı, ya da hansısa bazarlığa gedib Qərbdən müəyyən güzəştlər əldə etməyə çalışmalıdır. Mənim müşahidələrimə görə, Tehran daha çox ikinci varianta üstünlük verir. İranın “səbr”i məcburi xarakterlidir. Belə bir versiya da irəli sürülür ki, İsrailə birbaşa zərbə endirmək yox, İsrailin dövlət məmurları hədəf seçilsin. İstənilən halda İranın vəd etdiyi qisas əməliyyatının həyata keçirilməməsi və yaxud bunun uzadılması Tehranı çətin vəziyyətdə qoymaqla yanaşı, mövzunun aktuallığını da arxa plana keçirir. Bu isə rejimin proksi qüvvələrinə, daxili vəziyyətə, dövlətə inama da mənfi təsir göstərir. Elə bir fikir formalaşır ki, İran ancaq hədələyici tondan və informasiya müharibəsindən uzağa gedə bilmir. İsrailin və müttəfiqlərinin hücuma cavab zərbələrindən, yaxud genişmiqyaslı müharibəyə cəlb oluna biləcəyindən ehtiyatlanır. Zatən İranın hərbi gücü belə bir müharibəyə qadir deyil və sonu ağır ola bilər. Ona görə də hesab edirəm ki, İran hakim dairələrinin İsraildən “intiqam alacağı” barədə müxtəlif versiyalar irəli sürüləcəyi və müxtəlif bəhanələrin gətiriləcəyi hələ uzun müddət davam edəcək. Maraqlıdır ki, İsrailə dağıdıcı hücum edəcəyini vəd edən Tehran Xəzər dənizində hərbi manevrlər edir. Bu manevrlərin isə İsrailə aidiyyəti olmadığı düşüncəsindəyəm. İndiki mürəkkəb bir dünyada, xüsusən da Asiya regionunda baş verənlər İranı hisslərlə deyil, soyuqqanlı olmağa məcbur edir".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov cənub qonşumuzu o qədər gücsüz görməyin əleyhinədir:** “İran əslində İsraili vurur. Birinci növbədə psixoloji olaraq vurur. Daha sonra İranın Yaxın Şərq coğrafiyasında varlığı İsrail və ABŞ üçün bir çox hallarda çəkindirici rol oynayır. Livanda Hizbullahın varlığı bir çox hallarda İsrail üçün çəkindirici amildir. İranın assimetrik oyunçu imkanları ilə hətta Amerika belə hesablaşır. 2003-cü ildə Amerika İraqa girdi. Orada hakimiyyətə yekunda kim gəldi? Maliki. Maliki İranla çox yaxın idi. Siyasi hakimiyyətdə İranın payını Amerika tanıdı. Livanda Hizbullah faktiki dövlət içində dövlətdir. Yəməndə Ənsarullah hərəkatı İrana yaxındır. Zaman-zaman İsrailə raket atır. Maraqlı odur ki, bölgənin qeyri-ərəb müsəlman dövlətlərindən İsrailə raket atmış yeganə dövlət də elə İrandır. O ki qaldı "İran nə zaman İsraili vuracaq" sualına, bu, İsraillə Amerika arasında proseslərə baxış bucaqları ən zidd nöqtəyə çatan zaman baş verəcək. Amerika İsrail ilə heç də hər zaman eyni düşünmür. İran bunun zirvə nöqtələrini axtarır. Ola bilər ki, İran İsraili Amerikada seçki marafonunun zirvə anında vursun. O da ola bilər ki, heç vurmadan Amerikadan yenə siyasi və hərbi varlığına “tanınma” alsın".

**Siyasi analitik Asif Nərimanlı Amerikanın heç bir halda bu müharibəni istəmədiyini düşünür:** “İranın nümayiş etdirdiyi "səbr" müharibədən maksimum qaçmaq məqsədi daşıyır. Çünki İsraillə hərbi qarşıdurma son nəticədə İrana qarşı beynəlxalq koalisiyanın yaradılmasına və müdaxilə ilə üzləşməsinə gətirib çıxara bilər. Bununla yanaşı, İsrail-İran qarşıdurması ABŞ-ın yeni müharibəyə qoşulması zərurəti yarada bilər ki, Vaşinqton bunu istəmir. ABŞ-la nüvə danışıqlarını inkişaf etdirmək istəyən İran da hücum etməklə onu çətin vəziyyətdə qoymaq istəmir. Əksinə, İran hücum etməsə də, “İsrailə hücum edəcəm” təhdidini daim gündəmdə saxlamaqla Qərbi onunla hesablaşmağa məcbur edir, o cümlədən, İsraili daim risk altında saxlayır. Hücum etmədən “hücum edəcəm” strategiyası İranın siyasi manevridir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# İranın Avrasiya İqtisadi İttifaqına üzvlüyü ilə bağlı müraciətə baxılıb

**Avrasiya İqtisadi Komissiyasının mənzil-qərargahında İran İslam Respublikasının Avrasiya İqtisadi İttifaqında müşahidəçi dövlət statusunun alınması ilə bağlı müraciətinə baxılıb.**

APA xəbər verir ki, bu barədə Avrasiya İqtisadi Şurasının mətbuat xidməti məlumat yayıb.

Qeyd olunub ki, xarici tərəfdaşa belə statusun verilməsi barədə qərarı Ali Avrasiya İqtisadi Şurasının iclasında ittifaqın üzvü olan dövlətlərin başçıları qəbul edir.



# Rusiya və Çin ABŞ-la qarşıdurmada birləşməyə çalışır

**Rusiya və Çin “çoxqütblü dünya nizamı” çərçivəsində siyasi və iqtisadi sahədə əməkdaşlığı genişləndirməyə çalışır. “Report” TASS-a istinadən xəbər verir ki, bu məsələ Çin Dövlət Şurasının rəhbəri Li Tsyanla Rusiya Federasiyasının Baş naziri Mixail Mişustinin Moskvada keçirilən görüşündə müzakirə olunub.**

Görüş zamanı Çin Dövlət Şurasının rəhbəri vurğulayıb ki, Pekin növbəti mərhələdə əməkdaşlıq üçün möhkəm zəmin yaratmaq məqsədilə mühüm vəzifələri müəyyən etməyə çalışır.

“Rusiya Federasiyası və Çin Xalq Respublikası arasında enerji sahəsində əməkdaşlığın həm keyfiyyəti, həm də həcmi artır”, - o bildirib.

Öz növbəsində, Rusiyanın baş naziri qeyd edib ki, Moskva ilə Pekin arasında yaxınlaşma tempi Qərbin “qlobal dominantlığını qorumaq” istəyinin təsiri ilə artır.

“Qərb ölkələri uydurma bəhanələrlə qeyri-qanuni sanksiyalar tətbiq edir, qlobal hökmranlıqlarını qoruyub saxlamağa, eləcə də Rusiya və Çinin iqtisadi və texnoloji potensialının qarşısını almağa çalışır”, - o əlavə edib.

Danışıqların yekunları üzrə iki ölkə arasında hökumətlərarası və idarələrarası sazişlərin imzalanacağı gözlənilir.



# Gizli samovar çəkilişi

Zamin HACI
zaminhaci@gmail.com

"Mənə badi-səba ol sərvi-gülrüxdən xəbər verməz"
*(burada şair iqtisadi proseslərimizi təsvir etmişdir)*

**Bizim bir keçmiş baş bankir var idi, uzun illər manatı möhkəmləndirməklə məşğul oldu, ta iki devalvasiya olana qədər. Rəhmətliyin (bəlkə də sağdır, mən bunu işsiz qalmağı ilə bağlı yazıram - bizdə bütün işsiz məmurlara rəhmət düşür) manatı betonlamaqdan başqa şəxsi şirkətlər qurduğunu da nəql edərdilər. Nə dərəcədə doğru idi, şəxsən mən bilmirəm.**

İndi həmin keçmiş şirkətlərdən birinin ya dayandığı, ya başqasına satıldığı haqda informasiya dolaşır. Balaca şirkət deyil, toyuq əti, kərə yağı və sairə üzrə zırpı ərzaq istehsalçılarımızdan sayılır. Di gəl, bu boyda şirkətin başı üzərində fırlanan qara buludlar (aydın səma da ola bilər - xəbərimiz yoxdur ki) haqqında uca millətə bilgi verən varmı? Sanarsan hansısa cücəni yol keçəndə maşın vurub. Tıqq da yoxdur. Barı üzü qibləyə kəsin, murdar olmasın.

Bax, bu kimi hadisələr "bizdə ərzaq niyə bahalaşır" sualının əsl cavabıdır. Şəffaflıq yoxdur, bilinmir iqtisadiyyatla məşğul olan kimdir, onu tənzimləyən kim. Bəs tənzimləyən elə məşğul olandırsa nə edək?

Avqust ayıdır, dünən mən marketdə 3 manat 80 qəpiyə pomidor gördüm. Təsəvvür edin bu pomidor noyabrda, dekabrda hansı qiymətə olacaq. Hələ fevralı-zadı yazmıram.

Kərə yağı əvəzinə xalqa maşın yağı satırlar, üstəlik baha. Hər gün bu temada ağlaşma-şivəndir. Bir ekspertin yumoristik şərhini oxumuşdum. Deyir bütün dünyada kərə yağı okeanlarla daşınır, Azərbaycanın isə dünya okeanına çıxışı yoxdur, ona görə bizdə yağ bahadır. Məncə dəniz inəyinin südündən kərə yağı alırıq, bahalığın səbəbi budur.

Bəlkə biz İran üzərindən Hind okeanına kanal qazaq, yağ ucuzlaşsın? Zarafat eləmirəm, hörmətli iqtisadçı alimlərimizdən birinin vaxtilə belə projesi vardı.

Bakıda avtobus işlərinə baxan bir şirkət var. Ona bu səlahiyyəti kim verib, hansı şəraitdə tenderi-zadı udub, heç bunları indi dartışmağın mənası yoxdur - qarı çoxdan şey olub, qapı bağlanıb. Sadəcə, təzəlikcə bir informasiya oxudum, tər məni basdı. Yazmışdılar ki, filan-filan rayonlara avtobus marşrutlarını idarə etmək həmin adı bədnam şirkətimizə tapşırılır.

Əlbəttə, Bakını yarıdıblar, indi daha geniş ərazilərə metastaz verirlər. Bəzən dayanacaqda hansısa avtobusu 30-40 dəqiqə gözləyirsən. Kondisioneri elə işlədirlər sanki dilənçiyə sədəqədir. Nə dəqiq qrafik var, nə sürücülərdə mədəniyyət. Hökumət 200 min manatlıq avtobuslar alıb verib, yollarda ayrıca hərəkət zolağı ayırıb, gediş haqqını insafsız şəkildə qaldırıblar, lakin xidmət yenə "eşşək arabasıyla odun daşımaq" səviyyəsindədir. Bəs bu cür xidmətdən sonra sən hansı üzlə rayonlara da çıxırsan? Əlbəttə, daha sonra beynəlxalq səviyyəyə çıxmağın vaxtıdır. Monopoliya tam olmalıdır.

Mənim həmin rayonların camaatına yazığım gəlir. İndidən piyada getməyi öyrənsələr daha yaxşıdır. O cümlədən rayonlarda maşın sürənlər hazırlaşsın: əyləcin yerini bilməyən "as pilotlar" gəlir. Tappatap başlayacaq.

İşğaldan azad edilən ərazidə bir restoran var. Orada kiməsə 32 manata çay vermişdilər. Sonra guya təkzib edildi, dedilər bu qiymət "dəzgaha" aiddir (,əzi aparıcılarımız dəstgah sözünü bu cür çoxanlamlı ifadə edəndə mənə ləzzət edir). Ardıyca fısqırıq jurnalist araşdırılması aparıldı, gizli çəkiliş oldu, restoranı yalançı çıxardılar. Həqiqətən qaynar suya atılmış bir qaşıq quru çayı orada 32 manata satırdılar.

Çayın qiymətini öyrənmək üçün gizli çəkilişə məcburuq. Al sənə daha bir inkişaf. Bu dəfə KİV-in tərəqqisidir...





# Kiyevin taleyini həll edən seçkilər - Trampla Harrisin kritik yarışı başladı

## Kamala Harrisin prezidentliyə namizədliyi təsdiqləndi, Bayden "O da mənim kimi Putinə baş əymək niyyətində deyil" mesajı verdi - kollektiv Qərbdə Donald Trampın qələbəsi qorxusu var

**ABŞ-da noyabrın 5-də keçiriləcək prezident seçkisi ilə bağlı həyəcan artır və namizədlərdən kimin qalib olacağı təqdirdə, dünya siyasətində hansı proseslərin başlanacağı, Ukrayna böhranının həllinin necə olacağı sualları meydana çıxmaqdadır.**

Artıq Demokrat Partiyasının nümayəndələri ABŞ-ın hazırkı vitse-prezidenti Kamala Harrisi prezidentliyə namizəd kimi təsdiqləyiblər. CNN-in məlumatına görə, səsvermə avqustun 20-də Çikaqoda keçirilən milli qurultayında baş tutub. Kamala Harris və onun vitse-prezidentliyə namizədi, Minnesota qubernatoru Tim Uols avqustun əvvəlində onlayn səsvermədə səslərin əksəriyyətini qazanmışdılar. Demokratların qurultayı avqustun 19-22-də Çikaqoda keçirilir. Qurultayın son günündə Kamala Harris çıxış edəcək. Harrisin seçki qərargahı prezidentlik yarışında iştirakını elan etdiyi vaxtdan bəri təxminən 500 milyon dollar toplayıb. Məlumata görə, Donald Trampın kampaniyası isə 327 milyon dollar toplayıb ki, bunun da 138,7 milyon dolları iyulda yığılıb.

**ABŞ prezidenti Co Bayden** Demokratlar Partiyasının Çikaqoda keçirilən qurultayında çıxış edərək, prezidentlik fəaliyyətinin nəticələrindən danışıb. Bayden prezident kimi əldə etdiyi uğurlar arasında Ukraynanın Rusiya təcavüzünə müqavimət göstərmək qabiliyyətini də qeyd edib. Prezident vurğulayıb ki, nə o, nə də onun varisi Kamala Harris Putinə baş əymək niyyətində deyil: "Tramp Putinin qarşısında diz çökəcək. Mən bunu heç vaxt etməmişəm və sizə söz verirəm ki, Kamala Harris də bunu heç vaxt etməyəcək. Putin üç günə Kiyevi ala biləcəyini düşünürdü. Üç il keçsə də, Ukrayna yenə azaddır".

**O, həmçinin administrasiyasının qlobal alyansların möhkəmləndirilməsində uğurlarını qeyd edib:** "NATO-nu gücləndirmək üçün Avropadakı tərəfdaş dövlət başçıları ilə təxminən 190 saat vaxt keçirdim. Biz bunu bacardıq, İsveç və Finlandiyanı NATO-ya qataraq, illərdir edilməyəni etdik, Avropanı birləşdirdik". Bayden həmçinin amerikalıları Harrisə səs verməyə çağırıb və onu prezidentlik yarışından çəkilməyə inandıranlara qarşı kin saxlamadığını deyib: "Amerika, mən sənə əlimdən gələnin ən yaxşısını, həyatımın ən yaxşı 50 ilini verdim". ABŞ-ın keçmiş prezidenti Barak Obama bildirib ki, qarşıdan gələn prezident seçkiləri demokratların inandığı ölkə uğrunda mübarizə olacaq. "İndi inandığımız Amerika uğrunda mübarizədə hər şey yalnız bizdən asılıdır. Və səhv anlamayın, bu, mübarizə olacaq", - Obama bildirib.

**Almaniya kansleri Olaf Şolts isə ABŞ Demokratlar Partiyasından prezidentliyə namizəd olan Kamala Harrisin çox yaxşı prezident olacağını deyib:** "Mən onu yaxşı tanıyıram. O, şübhəsiz ki, çox yaxşı prezident olardı. Kamala Harris çox yaxşı siyasətçidir, bizim üçün vacib olan dəyərlərə - ABŞ və Avropa, ABŞ və Almaniya arasında yaxşı əməkdaşlıq olmasına sadiq qalacaq". **Bununla belə, kansler Harrisin Almaniya üçün keçmiş Amerika lideri Donald Trampdan daha yaxşı variant olub-olmayacağı sualına cavab verməyib:** "Əgər Donald Tramp ABŞ-dakı prezident seçkilərində qalib gəlsə və Ukraynaya hərbi yardım göstərməsə, Almaniya yenə də Kiyevə dəstəyini davam etdirəcək". **Bunu da Almaniyanın iqtisadiyyat naziri Robert Habek deyib:** "Bəli, bu halda biz Ukraynanı tək qoymayacağıq. ABŞ-ın köməyi olmasa, Ukrayna həqiqətən də nəyisə çatışmayacaq, lakin bu, qalan müttəfiqləri daha da sıx əməkdaşlığa təşviq edəcək".

**Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp isə özünün "Truth Social" sosial şəbəkəsində yazıb ki, Demokratların namizədi Kamala Harris seçkidə qalib gəlsə, ABŞ çökəcək. Tramp Harrisi həddən artıq solçu adlandırıb:** "Yoldaş Kamala Harris ölkəmiz üçün dəhşətli perspektivdir. O, kommunistdir, həmişə kommunist olub və həmişə kommunist olacaq. Onun hakimiyyəti altında ABŞ çox tez dağılacaq. Biz buna imkan verməyəcəyik". **Yeri gəlmişkən, Harris 4 sentyabrda "Foks Nyus"da keçiriləcək debatdan imtina edib. Tramp bu qərardan təəccüblənməyib:** "Debat baş tutmasa da, eyni tarixdə seçicilərin suallarını tək cavablandıracam". Beləliklə, Trampın prezident seçiləcəyi halda, Ukraynada münaqişənin Kiyevin arzulamadığı şəkildə dayandıracağı ilə bağlı kollektiv Qərbdə narahatlıq var. Amma NATO və koalisiya qüvvələri bu strateji savaşda Rusiyanı zəifləmeyi hədəflədiyi üçün konfliktə son qoymaq istəmirlər...

**Siyasi ekspert Ramiyə Məmmədova** ABŞ seçkilərində daha bir debüt olacağını istisna etmir. Onun dediyinə görə, Harris Amerika tarixində ilk afroamerikalı və ilk qadındır. Analitik hesab edir ki, Obama kimi Demokratlar Partiyasının namizədi olan afroamerikalı bir qadın ilk dəfə ölkənin prezidenti seçilə bilər: "Qərb dövlətlərinin liderlərində də ona simpatiya müşahidə olunur. Əvvəlcədən görünür ki, Harris Kiyevi müdafiə etməyə hazırdır. Tramp isə Ukraynaya dəstəklə bağlı dilindən normal fikir çıxarmayıb. Ona görə də daha çox Ukraynanın aqibətini müəyyən edəcək bir seçkilər olacaq. Amerikalı seçici də Ukrayna üzərindən seçimini edəcək. Təbii ki, burada əhalinin rifah səviyyəsi, iqtisadi məsələlər, maaş, iş və s. kimi vacib problemlər də mövcuddur, amma qlobal mənada Harris, yoxsa Tramp seçiminin açması budur - Rusiyaya qarşı döyüşmək, yoxsa Kiyevi yarıyolda qoymaq..."

**Ekspertin fikrincə, Avropa liderləri Ukrayna münaqişəsində Trampın yardımları dayandırmasından qorxurlar:** "Bu halda, Qərb ölkələrinin üzərinə ağır yük düşəcək. ABŞ və Böyük Britaniya bu müharibənin aparıcı gücləridir. Onlarsız savaş Ukraynanın məğlubiyyəti deməkdir. London dəstəyini davam etdirəcək, Tramp isə Vaşinqton adından əvvəlki yardımları etməsə, o zaman birləşmiş Qərbdə parçalanma ola bilər. Güc mərkəzləri isə Harrisi üstün görürlər və onunla yola davam etmək istəyirlər. Noyabrın 5-də ABŞ seçkilərinin nəticələri geosiyasi qarşıdurmada yeni bir səhifənin açılmasına səbəb olacaq".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# Antisülh siyasəti İrəvanı fəlakətə aparır - Putinin mesajı...

## Rusiya prezidentinin Bakıdakı anonsunun pərdəarxası; Ermənistan sülh danışıqlarının Moskvanın təşəbbüsü ilə bərpasına razı olacaqmı; ekspertlərdən ilginc açıqlamalar

**Rusiya prezidenti Vladimir Putin Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevlə regional məsələlərin müzakirəsi kontekstində sülh prosesinə dair də müzakirələr aparıb. Putin bu məsələyə dair deyib ki, Rusiya Federasiyası Cənubi Qafqazdakı vəziyyətin həllində tərəflər üçün vacib olduğu dərəcədə iştirak etməyə hazırdır.**



"Mən bilirəm ki, Azərbaycan Ermənistanla bütün məsələlərin tam həllinə yönəlib. Rusiyanın Cənubi Qafqazdakı hadisələrdə iştirakı əlbəttə ki, tərəflərin tələb etdiyi ölçüdə olacaq. Buna heç bir şübhə yoxdur. Əgər biz Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq, məsələni sərhədin delimitasiyası, demarkasiyasına çatdırmaq üçün nəsə edə bilsək, logistika və iqtisadiyyat istiqamətində müvafiq blokları açsaq, buna çox şad olarıq", - Rusiya lideri bildirib. Putin Azərbaycana səfərindən sonra Prezident İlham Əliyevlə danışıqların nəticələrini Ermənistan baş naziri Nikol Paşinyana bildirəcəyini deyib. Bəllidir ki, son vaxtlar sülh gündəliyi üzrə danışıqlar dayanıb, görüşlər keçirilmir. Təbii, bunun səbəbkarı Ermənistandır, onlar müzakirədən, sülhdən yayınır. O da sirr deyil ki, Ermənistan Rusiyadan üz döndərir, faktiki Qərbin, Avropanın diqtəsilə hərəkət edir. Reallıq budur ki, rəsmi İrəvanın sülh danışıqlarını sabotaj siyasəti Ermənistanı fəlakətə aparır. Bunu ayrı-ayrı erməni ekspertlər də etiraf edir. Əgər Rusiya Putinin dediyi şəkildə sülh və delimitasiya, kommunikasiyaların açılması üzrə üçtərəfli müzakirələr təşəbbüsü qaldırarsa, Ermənistan Moskvanın çağırışına razı olarmı? Qərb buna imkan verəcəkmi? Rusiyanın belə təşəbbüslərindən yayınmaq Ermənistana və Cənubi Qafqazdakı ümumi prosesə nə vəd edir?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında etiraf etdi ki, Rusiya prezidentindən Bakıda apardığı danışıqların nəticəsi haqda Ermənistan baş nazirini bilgiləndirəcəyini eşitmək onu xeyli təəccübləndirib:** "Yəni o baxımdan təəccübləndirdi ki, hazırda hər iki tərəf aralarında heç bir güvənin olmadığını, əksinə, yeni ziddiyyətlərin baş qaldırdığını sərgiləməkdədir. Əgər vəziyyət göstərilən kimdirsə, onların aralarında doğrudan da gərginlik yaşanırsa, bu, Qərbdəkiləri çaşdırmaq üçün razılaşdırılmış oyun deyilsə, onda Putin Paşinyanı necə inandıracaq ki, Azərbaycanla əlaqələri normallaşdırsın və bu, Rusiyanın təklif etdiyi şəkildə baş versin. Üstəlik, Azərbaycan Prezidentinin bu haqda heç nə deməməsinin özü də ondan xəbər verir ki, sülh danışıqlarının üçtərəfli format çərçivəsində əldə olunan razılaşmanın fəlsəfəsinə uyğun davam etdirilməsi artıq mümkün deyil. Bu, 2021-ci ildə mümkün ola bilərdi ki, onda da Rusiya prosesin irəliləməsində elə də maraqlı görünmədi. Hazırda danışıqlarının gedişində nə uğur əldə edilibsə, bu, məhz ikitərəfli format çərçivəsində baş verib və Azərbaycan indən sonra da danışıqların məhz bu formatda davam etdirilməsində israrlıdır. Hətta mümkündür ki, həmin danışıqların nəticəsi olaraq tərəflər yaxın perspektivdə hərtərəfli sülh müqaviləsi olmasa da, memorandum tipli bir sənəd imzalasınlar. Bəlkə də Putinin açıqlaması ona hesablanıb ki, burada Moskvanın da az rol oynamadığı düşünülsün".

**Sahib Alıyev əlavə etdi ki, əgər Ermənistan göstərdiyi kimi, doğrudan da Rusiyanın forpostluğundan qurtarmağa çalışırsa, onda prezident Putinin bu açıqlaması, sadəcə, təzyiq xarakterlidir:** "Kreml danışıqlarının hansı yöndə getdiyini və bunun necə qurtaracağını görür. Məhz indi səslənən açıqlamanı xatırlatmaqla gələcəkdə deyilə bilər ki, əgər Rusiyanın təklif etdiyi yolla gedilsə idi, onda Ermənistan üçün daha əlverişli perspektiv açılacaqdı. Getmədi və bu da nəticə".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov Kremlin proseslərdə rol almaq niyyətini təbii sayır:** "Təbii ki, Rusiya Cənubi Qafqazda gedən proseslərdən, o cümlədən Ermənistanla Azərbaycan arasında davam edən müzakirələrdən, sülh danışıqlarından kənarda qalmaq niyyətində deyil. Bu baxımdan prezident Putin iki ölkə arasında gedən danışıqlarda ya vasitəçi, ya hər hansı formada iştirakını davam etdirmək istəyir. Hazırda Fransanın və ABŞ-ın təsiri ilə danışıqlardan yayınan Ermənistanın Rusiyanın təşəbbüslərinə ciddi reaksiya verəcəyi də gözlənilən deyil. Bununla belə, Ermənistan Rusiyanın təklif və təşəbbüslərini rədd etməyəcək, amma sülh danışıqlarından yayınmaqda davam edəcək".

**S.Məmmədov qeyd etdi ki, Ermənistan gözləmə mövqeyindədir və bu mövqedə olmağı ona tövsiyə edən də Fransa və ABŞ-dır:** "Azərbaycan hakimiyyəti bundan nəticə çıxarmalıdır. Ermənistanın gözləmə mövqeyinin arxasında yaxşı olmayan niyyətlər dayanır. Bir tərəfdən silahlanır, ölkənin iqtisadi imkanlarını artırmağa səy göstərir, digər tərəfdən sərhəd zonalarında təxribatlarını davam etdirməklə sülh proseslərini daha da səngitməyə çalışır. Azərbaycan isə mümkün kompromislərə hazırdır. Amma dəfələrlə qeyd etdiyimiz kimi, bir ölkənin ali qanununda başqa ölkəyə qarşı ərazi iddiası mövcuddursa sonrakı razılaşmalar öz əhəmiyyətini itirir və Ermənistan tərəfi üçün legitim olmayacaqdır. Çünki alt normalar - beynəlxalq müqavilələrin hüquqi qüvvəsi Ermənistan konstitusiyasına zidd olduqda konstitusiya üstün sayılır - ali qanuna zidd olmamalıdır. Bu baxımdan hazırda sülh danışıqları hər hansı formada davam etsə də bütövlükdə dalana dirənmiş sayıla bilər. İndiki halda yalnız hansısa çərçivə sənədinin müzakirəsindən söhbət gedə bilər, ta o vaxta qədər ki, Ermənistan konstitusiyasına yenidən baxmasın".

**Politoloq Məhəmməd Əsədullzadə də hesab edir ki, Rusiya Azərbaycanla Ermənistan arasında üçtərəfli danışıqların Moskvada aparılmasında maraqlıdır:** "Tərəflər müharibədən sonra bir neçə dəfə Moskvada görüşlər keçirib. Hətta nəqliyyat və kommunikasiyaların açılması üzrə üçtərəfli komissiyada Rusiya da təmsil olunur. Amma Ermənistan Rusiyanın vasitəçiliyindən imtina edib. Hətta Zəngəzur dəhlizinin açılması və burada Rusiyanın rolunu da qəti qəbul etmir. Təbii ki, Nikol Paşinyan bu məsələdə Qərbin təlimatı ilə hərəkət edir".

**Ekspert qeyd etdi ki, Azərbaycan üçün fərq etmir istər, Moskva və istər Qərb danışıqlar obyektiv və konstruktiv olmalı və sülhə gətirməlidir:** "Məsələ budur ki, vəziyyətin bu hala gəlməsində Moskvanın da payı var. Çünki Moskva ilk günlərdə manipulyasiya siyasəti apardı. Obyekt mövqe ortaya qoysaydı, vasitəçi ola bilərdi. İndi prezident Putin məqbul və praqmatik mövqe ortaya qoyub. Azərbaycan hesab edirəm ki, ikitərəfli danışıqlara üstünlük verir. Bunun nəticəsidir ki, Ermənistanla müvafiq olaraq irəliləyiş əldə edilib. Amma bundan sonra Moskva yenidən vasitəçi olmasını İrəvan qəbul etməyəcək".

**M.Əsədullazadə hesab edir ki, Ermənistanla ikitərəfli danışıqlar daha məqbuldur və tez bir zamanda sülh müqaviləsi bağlansa, üçüncü tərəf təzyiq edə bilməz:** "Ermənistan danışıqları dayandırıb, Moskva deyir mən vasitəçi olum. Rusiya vasitəçi ola bilməsə, yalnız Ermənistana təzyiq edəcək. Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsinin davam etməsi, Moskvanın Cənubi Qafqaz siyasətində dönüş yaratmasını çətinləşdirəcək".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**




## Ermənistanda Belarusa qarşı aksiya - səfirə 3 gün vaxt verdilər

**Belarusun Ermənistandakı səfirliyi qarşısında etiraz aksiyası keçirilib. APA Ermənistan KİV-nə istinadən xəbər verir ki, aksiyaya səbəb Belarus lideri Aleksandr Lukaşenkonun ermənilərə ünvanladığı bəyanatlar olub.**

Aksiyada iştirak edən siyasi fəal Armen Babacanyan Belarus səfirini yerləşdiyi binadan ilk olaraq Lukaşenkonun dostu kimi tanınan Qaqik Tsarukyanın çıxaracağına ümid etdiyini bildirib.

Babacanyan "Respublika Naminə", "Respublika", Avropa Partiyası, "Avropa Hüququ", Azad Vətəndaş" QHT-ləri və "Asparez" klubunun məsələ ilə bağlı birgə bəyanatını təqdim edib.

Bəyanatda Belarusla diplomatik münasibətləri kəsmək, Belarus səfirini arzuolunmaz şəxs elan etmək və ona ölkəni tərk etmək üçün 3 gün vaxt vermək tələbi var.

# BRİCS-ə üzvlük Azərbaycana nə qazandıracaq - təhlil

## Qurumun nəqliyyat-logistika sahəsində, habelə aqrar sahədə inkişaf perspektivləri böyükdür

**Azərbaycan BRİCS-ə daxil olmaq üçün rəsmi müraciət edib. Bu haqda Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə mətbuata açıqlamasında bildirib. Xatırladaq ki, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu "TASS" agentliyinə müsahibəsində ölkəmizin BRİCS-ə qoşulmaq istədiyini bildirmişdi: "BRİCS-ə üzv olmaq istəyənlərin uzun növbəsi var. Azərbaycan doğrudan da belə bir istəyi ifadə edib. Bu barədə rusiyalı həmkarlarımızla danışdıq. Lakin bu da bir prosesdir".**




Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri Qriqori Karasin bildirib ki, Rusiya Azərbaycanın BRİKS-ə qoşulmaq qərarını alqışlayır. O, Lenta.ru ilə söhbətində Bakının təşkilata üzv olmaq üçün müraciətinə cavab verib: "Biz dost Azərbaycanımızın BRİKS-in işində tamhüquqlu üzv kimi iştirak etmək istəyini alqışlayırıq. Biz bunun baş verməsinə kömək etməyə davam edəcəyik, lakin yeni BRİKS üzvlərinin qəbulu üçün aydın mexanizm hələ hazırlanmayıb. Amma düşünürəm ki, bu, yaxın illərdə həyata keçiriləcək".

Qeyd edək ki, BRİKS 2006-cı ildə Braziliya, Rusiya, Hindistan və Çin tərəfindən yaradılıb. Ölkələrin adlarının baş hərfinə uyğun olaraq BRİK adlandırılıb. 2010-cu ildə Cənubi Afrika Respublikası qrupa qoşulub və birlik BRİKS adlandırılıb. Uzun illər formal birlik kimi qalan BRİKS 2022-ci ildə Rusiyanın Ukraynaya hücuma görə Qərbin ağır sanksiyaları ilə üzləşməsindən sonra Moskvanın səyi ilə aktivləşib. 2023-cü ilin avqustunda Yohanesburqda BRİKS-in sayca 15-ci zirvəsi keçirilib və Çin rəhbəri Si Cinpinin təklifi ilə üzvlük üçün müraciət etmiş Argentina, Misir, İran, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Efiopiyaya rəsmi dəvət göndərilib. Onlar 2024-cü ilin 1 yanvarında qrupun üzvü sayılmalıydılar. Lakin ona qədər Argentinada yeni qüvvələr hakimiyyətə gələrək, BRİKS-ə qoşulmaqdan imtina etdilər. Eyni zamanda Səudiyyə Ərəbistanı Krallığının dövlət televiziyası Əl İxbariya X sosial şəbəkəsində (keçmiş Twitter) elan etdi ki, Ər-Riyadın təşkilata tamhüquqlu üzvlüyü rəsmən başlayıb və bu, onun "dünyadakı mövqeyini gücləndirir". Lakin sonradan bu mesaj silindi. Daha sonra Davosda Dünya İqtisadi Forumunun (ÜİF) bölmələrindən birində Səudiyyə Ərəbistanının ticarət naziri Məcid bin Abdulla Əl-Qəsabi çıxışı zamanı bildirib ki, ölkəsi hələ BRİKS-in tamhüquqlu üzvü deyil, prosedur tamamlanmayıb.

BRİKS-i beynəlxalq təşkilat adlandırmaq olmaz, çünki onun fəaliyyətini müəyyən edən nizamnaməsi, əsasnaməsi və ya başqa fundamental sənədi yoxdur. Ona görə də BRİKS-ə münasibətdə "birləşmə" sözünü işlətmək daha düzgündür. Eyni zamanda birliyə üzv olmağın konkret mexanizmi də yaradılmayıb. Formalaşmış təcrübə belədir ki, BRİKS üzvü olmaq üçün müraciət edən dövlətə qrupun cari il üçün sədri üzv ölkə liderlərinin konsensus qərarı əsasında dəvət göndərir. Dəvət olunmuş ölkə onun lideri və ya xarici işlər naziri dəvəti qəbul etməsi barədə BRİKS sədrinə rəsmi məlumat verdikdə tamhüquqlu üzv olur. Səudiyyə Ərəbistanı ilə bağlı vəziyyətdə ölkə qoşulmaq üçün dəvət alıb, lakin onun xarici işlər naziri hələ də BRİKS sədrinə onun qəbulu barədə məlumat verməyib. Bu isə Ər-Riyadın rəsmən BRİKS üzvü sayılmasına imkan vermir.

Qeyd etmək yerinə düşər ki, BRİKS ilk növbədə iqtisadi birlikdir. Ən azı, o, məhz üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi məqsədilə yaradılıb. Lakin zaman keçdikcə - xüsusilə də 2022-ci ildən sonra BRİKS həm iqtisadi, həm də siyasi baxımdan Qərbin və ilk növbədə ABŞ-ın (onun şəksiz lideri kimi) tətbiq etdiyi dünya nizamını qəbul etməyən ölkələri bir araya gətirən siyasi birləşməyə doğru təkamül edib.

Hazırda BRİKS-in iqtisadi sahədə bir neçə əməkdaşlıq müstəvisi var. Bunlar kənd təsərrüfatı və ya informasiya təhlükəsizliyi sahəsində işçi qrupları, Ekspert Mərkəzləri Şurası, Biznes Şurası, Elmi Şura var. Eyni zamanda BRİKS çərçivəsində müxtəlif forumlar da var ki, həmçinin üzv ölkələr arasında qarşılıqlı fəaliyyətin müəyyən sahələrinə təsir göstərir: Parlament Forumu, Media Forumu, Gənclər Forumu.

BRİKS strukturunda xüsusi yeri 2015-ci ilin yayından fəaliyyət göstərən iki maliyyə institutu tutur: Valyuta Ehtiyatları Hövzəsi - Poole və BRİKS İnkişaf Bankı. Birincisi, assosiasiyaya üzv dövlətlər üçün ciddi maliyyə çətinliyi zamanı onlara kömək etmək üçün nəzərdə tutulmuş bir növ yardım zənbilidir. Poole-un kapitalı 100 milyard dollardır. Öz növbəsində, BRİKS İnkişaf Bankı iştirakçı ölkələrin müxtəlif infrastruktur layihələrini maliyyələşdirmək üçün yaradılıb və onun büdcəsi tam olaraq Poole ilə eynidir - 100 milyard dollar. Yeri gəlmişkən, hazırda Banka Braziliyanın eks-prezidenti Dilma Russeff rəhbərlik edir.

Valyuta Ehtiyatları Hövzəsinin və BRİKS İnkişaf Bankının(NBD) yaradılması BRİKS-ə üzv ölkələrin Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına - faktiki olaraq Qərbin nəzarəti altında olan beynəlxalq maliyyə və iqtisadi strukturlara alternativ yaratmaq istəyini əks etdirir. İstəyin reallaşması uzun illər və üzv dövlətlərin oturuşmuş, vahid mövqeyinin formalaşdırılmasını tələb edir.

2022-ci ildən sonra Rusiyanın təşəbbüsü ilə BRİKS-in ortaq pul vahidinin yaradılması ideyası aktiv müzakirə olunsa da, real nəticə verməndən gündəmdən çıxarılıb. Hazırda ortaq rəqəmsal valyutanın yaradılması məsələsi gündəmə gətirilib. Heç kimə sirr deyil ki, BRİKS-ə üzv ölkələr (bu, xüsusilə Rusiyaya aiddir) qarşılıqlı hesablaşmalarda dollardan imtina etməyə və milli valyutalara tam keçid etməyə çalışırlar. Ona görə də belə bir tədbir BRİKS üzvlərinin milli iqtisadiyyatların de-dollarizasiyası istiqamətində kursuna tamamilə uyğun olardı. Lakin BRİKS üzvləri ekspertləri belə bir valyutanın ən tezi 10 ilə formalaşdırıla biləcəyi qənaətindədirlər.

Hələlik birlik üzvləri qarşılıqlı ticarətdə milli valyutalara keçid üzərində işləyirlər. Rusiya bu sahədə daha çox irəli gedib - sanksiyalardan yayınmaq məcburiyyətinə görə. Son məlumata görə, Rusiya ilə Çin arasında qarşılıqlı ticarətin 95 faizi rubl və yuanla həyata keçirilir. Burada rublun və yuanın payı açıqlanmasa da, Rusiyanın Çinə ixracının daha çox olması ticarətdə yuanın üstünlük təşkil etdiyini göstərir.

BRİKS-in iqtisadi birlik kimi hansı həddə qədər inkişaf edəcəyi barədə heç kimdə dəqiq təsəvvür yoxdur. Çünki birlik ölkələri arasında sıx siyasi münasibətlər mövcud deyil. Hətta birliyin iki ən böyük iqtisadiyyata malik ölkəsi olan Çinlə Hindistan arasında torpaq iddiaları üzündən siyasi əlaqələr son dərəcə soyuqdur. İqtisadi sahədə də Hindistanın sürətli inkişafı fonunda rəqabət getdikcə yüksəlir.

Gözləntilərə görə, yaxın 5 ildə qlobal iqtisadi artımın 40 faizini Çin, Hindistan, Braziliya və Rusiya təmin edəcək. 2022-ci ildə qlobal ÜDM-in həcmi 101,56 trilyon dollar təşkil edib. Onun 45 faizi G7 ölkələrində istehsal olunub. Qlobal ÜDM-də o zamankı BRİKS ölkələrinin payı 25,3 faiz təşkil edib. BVF-nin proqnozları doğrularsa, növbəti 5 ildə qlobal ÜDM-in həcmi 3 faiz - yəni 3,05 trilyon dollar artacaq. Fondun qlobal artımda gözlədiyi payları ölkələrin ÜDM-lərinin üzərinə əlavə etsək, aydın olar ki, 5 ildən sonra qlobal ÜDM-in həcmi 104,61 trilyon dollar təşkil edəcək. Bu zaman onun 44,3 faizi G7 ölkələrinin, 27 faizi BRİKS-in (hazırkı üzvlərə görə) payına düşəcək.

Halbuki 2007-ci ildə Goldman Sachs 2032-ci ilədək BRİKS ölkələri ÜDM-nin G7 ölkələri ÜDM-i ilə bərabərləşəcəyini proqnozlaşdırmışdı.

Bütün ziddiyyətlərə baxmayaraq, Azərbaycanın BRİKS-ə qoşulması iqtisadi baxımdan faydalı ola bilər. Belə ki, Azərbaycan ərazisindən keçən iki böyük nəqliyyat dəhlizindən biri - Şərq-Qərb dəhlizi Çindən Avropaya və əksinə, Şimal-Cənub dəhlizi isə Hindistandan Avropaya və əksinə yükdaşımaların həyata keçirilməsini nəzərdə tutur.

Şərq-Qərb nəqliyyat dəhlizinin fəaliyyətinin gücləndirilməsi baxımından Azərbaycanla Çin arasında münasibətlər əlverişli istiqamətdə inkişaf etsə də, Hindistanla münasibətlərdə bunu söyləmək mümkün deyil. Azərbaycanın Pakistanla isti münasibətləri fonunda Yeni Dehli var gücü ilə Ermənistanı silahlandırır. Bu isə qarşılıqlı münasibətlərin ciddi şəkildə soyumasını şərtləndirir. Belə bir şəraitdə Azərbaycanın BRİKS müstəvisində Hindistanla təmas imkanı qazanması müsbət dinamika olar.

Onu da qeyd etmək lazımdır ki, əsasən Rusiya ictimai rəyi BRİKS-i Qərbə qarşı siyasi güc mərkəzi kimi görməkdədir. Birliyin yaxın gələcəkdə ABŞ başda olmaqla, Qərbin qarşısında dayanacaq əsas qüvvəyə çevriləcəyinə dair çoxsaylı şərhlər səsləndirilməkdədir.

**Politoloq Vaqif Hüseynin dediyinə görə, belə bir perspektivin real olduğunu demək çətindir:** "BRİKS böyük dövlətlərin birliyidir, onların arasında Qərblə savaş halında olan Rusiya da var. Məhz Rusiya BRİKS-i Qərbə əks siyasi qüvvəyə çevirməyi hədəfləyir. Rusiyada Moskva Dövlət Universitetində xüsusi araşdırma mərkəzi var. BRİKS-in ortaq media orqanları da Rusiyada fəaliyyət göstərir. Vaxtilə Rusiyada BRİKS-in jurnalını təsis edənlər arasında erməni separatçı Ruben Vardanyan da vardı. BRİKS-in vahid siyasi mövqedən çıxış edən mərkəzə çevrilməsi barədə danışmaq çox tezdir. Bilirsiniz ki, Birinci Dünya müharibəsindən sonra Qərb birliyi ilə bərabər onun iqtisadi-maliyyə strukturları olan Beynəlxalq Valyuta Fondu, Dünya Bankı kimi qurumlar da formalaşdırıldı. Bu qurumlar getdikcə qlobal səviyyəli təşkilatlara, strukturlara çevrildilər. BRİKS-də kifayət qədər böyük iqtisadi potensialı olan ölkələr birləşib. Lakin onların belə qurumların formalaşdırması, yaxud formalaşdırdıqları qurumların qlobal səviyyədə qəbul olunub-olunmaması barədə nəsə söyləmək mümkün deyil".

V.Hüseynin sözlərinə görə, BRİKS-in Qərbə qarşı vahid güc mərkəzinə çevrilməsi üçün uzun yol keçilməlidir: "İndidən bu barədə nəsə proqnozlaşdırmaq çox çətindir. Proseslər üzvlərin birgə fəaliyyətə nə qədər meylli olacaqlarından asılıdır. Hansı ki, o üzvlərdən yalnız Çinin Qərbə qarşı dayanacaq gücü var. Birliyin alternativ güc olması üçün həm də ABŞ başda olmaqla, Qərbin əhəmiyyətli dərəcədə zəifləməsi lazımdır. Bunun da nə dərəcədə real olduğunu indiki məqamda qiymətləndirmək çətindir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 149 (8422) 22 avqust 2024

# Qocalığa görə müavinətlərin artırılması "yaddan çıxıb" - səbəb...

## Natiq Cəfərli: "Heç olmasa minimum əməkhaqqı səviyyəsində artırılmasına ehtiyac var"

**İqtisadçı Vüqar Bayramov pensiyaların nə vaxt və nə qədər artırılacağı ilə bağlı məlumat açıqlayıb. O deyib ki, mövcud qanunvericiliyə əsasən, pensiyadakı artımlar indeksləşdirmə və yardımların verilməsi formasında həyata keçirilir: "Əmək pensiyaları hər il yanvar ayında indeksləşdirilir və bu, əvvəlki ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğunlaşdırılır.**

Bu ildəki orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq, 2025-ci ilin yanvarın birindən etibarən bütün növ əmək pensiyalarında artımlar olacaq. Bu ilin ilk yarısında ölkədə nominal orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8.8 faiz artıb. 2024-cü il üçün yekun illik göstərici gələn ilin əvvəlində elan ediləcək. Eyni zamanda bu ilin ikinci yarısında maaş məbləğlərindəki potensial dəyişikliklər də orta illik əməkhaqqı faizinə təsir göstərə bilər.

Daha konkret rəqəmlər ilin sonuna doğru bəlli olacaq. Bununla bağlı artıq konkret rəqəmləri və eyni zamanda pensiya kapitalında hansı faiz artımın olmasını təqdim etmək mümkün olacaq.

Əmək pensiyaları orta aylıq əməkhaqqındakı artım faizinə, pensiya kapitalı isə inflyasiya səviyyəsinə uyğun olaraq artırılır. Bu baxımdan, gələn ildən etibarən pensiya kapitalı da indeksləşdirilərək artırılacaq. Bu da xüsusən də pensiya yaşı tamam olmayan, amma gələcəkdə pensiya alacaq vətəndaşlarımızın pensiya kapitalının artmasına və onların daha çox pensiya almasına imkan yaradan faktorlardan biridir".

Pensiyalar müəyyən faizlə hər il artırılır, ancaq ölkədə ərzaq, qeyri-ərzaq, kommunal xidmətlərin bahalaşmasına rəğmən qocalığa görə müavinət alanların təqaüdündə illərdir dəyişiklik yoxdur. Onlar cəmi 225 manatın ümidinə qalıblar. Məsələ ondadır ki, bu şəxslərin əksərinin əlillik pensiyası kəsilib, yaxud arxivlərdən iş yerləri - 25 illik stajının 1-2 ili tapılmır deyə, yalnız qocalığa görə müavinət alırlar. 225 manat isə onların dərmanına, kommunal xidmətlərinə belə çatmır. Bu vəsait niyə artırılmır?

Məlumat üçün bildirək ki, "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ vardır.

Bu qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılaraq müəyyənləşdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 dekabr 2018-ci il tarixdə təsdiq etdiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun 2019-cu ilin 1 yanvarından qüvvəyə minmişdir. Qanuna edilmiş və qüvvəyə minən dəyişikliyə əsasən, 2019-cu ilin əvvəlindən pensiyaların pensiya hüququ yaranan şəxsin heç bir müraciəti olmadan, sənəd təqdim etmədən və pensiya hüququ yaranan gün ərzində elektron qaydada təyin edilməsinə başlanılmışdır. Pensiya şəxsə təyin olunandan sonra ona bu, həmçinin pensiyanın məbləği, bank kartını əldə edəcəyi bank filialı və



vaxt barədə "sms", e-mail və ya rəsmi məktubla məlumat verilir. Pensiya təyinatının avtomatlaşdırılması tədbiri pensiya hüququ yaranacaq şəxslərdən 80 faizini əhatə edəcək. Pensiya təyinatının avtomatlaşdırılması hələ ki mümkün olmayan digər 20 faiz şəxslərin sırasına aiddir:

"Əmək pensiyaları haqqında" Qanunun 9-cu maddəsindəki (güzəştli şərtlərlə əmək pensiyasına hüquq qazananlar);

"Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsindəki qruplar (dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və s.)

Mütəmadi olaraq həmin kateqoriyadan olan vətəndaşların pensiya təyinatının avtomatlaşdırılması üçün həm qanunvericilikdə, həm də aidiyyəti qurumlarla birgə elektron proqram təminatının qurulması istiqamətində işlər aparılacaq.

Əmək pensiyası yaş həddinə çatmış, lakin yaşa görə əmək pensiyası hüququ yaranmayan şəxslərə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanuna əsasən əmək qabiliyyəti olmayan şəxslər işləmədikdə yaşa görə sosial müavinət (2023-ci ilin yanvarın 1-dən 220 manat) almaq hüququ vardır.

**İqtisadçı-ekspert Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, Azərbaycanda bu məsələ uzun illərdir ki, həll edilmədən qalır:** "Çünki əvvəllər insanlara verilən təqaüdlərdə də müəyyən problemlər yaşanırdı. Son illər minlərlə insanın demək olar ki, təqaüdü ləğv edildi. Qurunun oduna yaş da yandı. İndi də bu məbləğ çox aşağı səviyyədə qalıb. İnsanların nə kommunal xərclərinin, ümumiyyətlə yaşayış üçün xərc deyil. Hətta onu da nəzərə alsaq yaşayış minimumu da bu məbləğdən yüksək deyil. Minimum əməkhaqqı 345 manatdır. Ona görə də ehtiyacı olan bu insanların ödənişlərinin artırılmasına, heç olmasa minimum əməkhaqqı səviyyəsində artırılmasına ehtiyac var".

Yeri gəlmişkən, dünyada ən böyük pensiya İspaniyada ödənilir: pensiyaçı ayda təxminən 3600 avro ala bilər.

İspanlar 65 yaşında təqaüdə çıxır və əmək stajına və pensiya sisteminə töhfələrinə görə pensiya alırlar. Maksimum məbləğ üçün hər bir şəxs 38 il ərzində pul köçürməlidir. Hər bir Avropa dövlətində məbləğlər Avropa İttifaqında ümumi deyil, daxili qanunvericilikdən asılıdır.

Almaniyadakı təqaüdçülər təxminən 790 avro (76 min rubldan bir qədər çox) alırlar, lakin faktiki məbləğ birbaşa bütün xidmət stajı və şəxsi töhfələr üçün ümumi qazancdan asılıdır. Pensiya yaşı kişilər və qadınlar üçün 66-dan başlayır, lakin 2029-cu ilə qədər 67-yə yüksələcək.

Böyük Britaniyada üç növ pensiya var: özəl, dövlət və pensiya. İngilislər ayda 960 funt sterlinqə qədər alırlar. Məbləğ hər il indeksləşdirilir.

Danimarkalılar iş həyatlarını 65-67 yaşlarında bitirirlər. Bu dövlətin səlahiyyətli orqanları pensiyaçılar üçün əlverişli yaşayış şəraiti yaradır və onların hər birinə təxminən 2700 avro birdəfəlik ödəniş ödəyir.

Fransız qadınlar 65, kişilər isə 67 yaşında pensiyaya çıxırlar. Orta aylıq ödənişlər təxminən 1300 avro təşkil edir.

Türkiyə isə ahıl yaşlı vətəndaşlara yüksək sosial təminat verən ölkələrdən sayılır. Ölkədə minimum pensiya 465 dollar, orta pensiya isə 680 dollar təşkil edir.

Şimal qonşumuz Rusiya isə zəif pensiya təminatı ilə seçilir. Bu ölkədə orta aylıq pensiya 200 dollar təşkil edir.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Məşhur maşın brendlərinin Çin variantı - tələ, yoxsa...

## Bu avtomobilləri almaq həm də lotereyadır, bəziləri dayanıqlı, "uzunömürlü"dür, bəziləri isə...

**Çin maşın bazarında sözün əsl mənasında inqilab edir. Hibrid, elektromobillərin əksəri bu ölkənin istehsalıdır. Maraqlısı odur ki, məşhur brendlər özləri müasir texnologiyaları zavodlarına gətirməkdənsə, Çinlə birgə maşın istehsalına üstünlük verirlər. Məsələn, "Toyota", "Volkswagen" kimi məşhur avtobrendlərin hibrid modellərini Çin şirkətləri yığır və satışa çıxarırlar. Diqqətçəkən məqam odur ki, məsələn, "Toyota Corolla Cross" modelinin hibrid-Plug-in Çin variantı 20 min dollara, orijinalı, hətta hibrid olmayanı isə 32-35 min dollara təklif olunur. Bu variantlar arasında fərq varmı? Ümumiyyətlə, Çin maşınlarının özünü doğruldacağı, bazara oturacağı gözləniləndirmi?**

Ən əsası, detalları tapılacaqmı? Söhbət ondan gedir ki, Çin maşınlarının bir çoxu tez-tez konstruksiyasını dəyişir və sonrakı illərdə belə avtomobillərin sahibləri detal tapmaqda çətinlik çəkirlər. Bununla belə, Çin istehsallı avtomobillərə maraq azalmır, əksinə, hər ötən gün bazarda Çin avtomobillərinin payı artır. Çin avtomobillərini bunca cəlbedici edən nədir?

Əsas üstünlük, əlbəttə ki, qiymətdir. Avtomobil qiymətlərinin ümumi artımını nəzərə alsaq belə, Çin brendləri xüsusilə Qərb brendləri ilə müqayisədə ən sərfəli variant olaraq qalır. Üst səviyyə konfiqurasiya üçün əlavə ödəniş də aşağıdır. Çin markalarına qulluq etmək və təmir etmək asandır. Sadəcə, Azərbaycanda bu markalarla işləməyə yönəlmiş diler və xidmət mərkəzləri azdır. Bu səbəbdən də təmir və ehtiyat hissələri tapmaqda problemlər yaşanır. Çin avtomobilləri Qərb avtomobillərindən daha ucuzdur.

Sahibləri "çinlilər"in xarici görünüşündən də razıdırlar. Asiya şirkətləri daha çox məşhur Qərb avtomobillərinin dizaynını kopyalamağı çoxdan öyrəniblər. Bu gün bazarda bəyənilən avtomobillərin "çinli" "surəti" az deyil. Aşağı qiymət cəlbedici görünüşlü, ən üst konfiqurasiyalı "çinli"yə sahib olma imkanları genişdir.

Məsələn, Haval Dargo krossoverində kruiz-kontrol, altı təhlükəsizlik yastığı, açarsız giriş, qızdırılan sükan və bir



çox başqa üstünlüklər var. Üst versiyaya panoramik dam, simsiz enerji doldurma və s. əlavə olunur.

Çin avtomobillərinin mənfi cəhətlərdən də az deyil. Çin istehsallı avtomobilin səs və istilik izolyasiyası Qərbli "qardaşları"na münasibətdə zəifdir. Korroziyaya qarşı müqaviməti də arzu olunan səviyyədə deyil. Avtomobil incə metal sayəsində korroziya tez bir zamanda uğrayır. Çin avtomobil modellərinin əksəriyyətində tam ötürücülü modellər praktiki olaraq yoxdur.

Çin avtomobili almaq həmişə lotereyadır, bəziləri dayanıqlı, "uzunömürlü"dür, bəziləri isə sizi tez bir zamanda məyus edə bilər. Bununla belə, Çin istehsallı avtomobilləri almağa dəyər.

Birincisi, bu, qiymət-keyfiyyət nisbəti baxımından hələ də ən yaxşı seçimdir. İkincisi, müsbət cəhətlər mənfi cəhətlərdən çoxdur.

Avtomobil satışı ilə məşğul olan iş adamı Natiq Məmmədov deyir ki, rəsmi qaydada ölkədə idxal edilən avtomobillər adətən Azərbaycanın texniki tələblərinə uyğun olaraq sertifikatlaşdırılır. Belə avtomobillərin təhlükəsizlik standartlarına, ekoloji normalara və digər yerli tələblərə cavab verdiyini göstərir. Fərdi qaydada idxalda isə sertifikatlaşdırmaya əməl edilməyə bilər, bu da müəyyən hallarda avtomobilin dövlət qeydiyyatına alınmasında və yaxud istifadə olunmasında çətinliklər yarada bilər. Yəni Çindən fərdi şəkildə gətirilən avtomobillər, bəzən yerli bazar üçün nəzərdə tutulmayan spesifikasiyalarda ola bilər. Bu, avtomobilin texniki göstəricilərindən tutmuş, interyer və eksteryer dizaynına qədər fərqli cəhətləri əhatə edə bilər. Rəsmi distribyutorlar isə adətən yerli bazarın tələblərinə uyğun modifikasiyalı avtomobilləri idxal edir. Natiq Məmmədov tövsiyə edir ki, avtomobili rəsmi dilerlərdən alınsa, daha uyğun olar.

"Çindən fərdi şəkildə avtomobil gətirmək qiymət baxımından sərfəlidir. Lakin bu cür avtomobillərin zəmanət, texniki xidmət, sertifikatlaşdırma və modifikasiya məsələlərində müəyyən risklər və çətinliklər yarana bilər. Rəsmi qaydada idxal edilən avtomobillər nisbətən yüksək qiymətə satılsa da, zəmanət, texniki xidmət və yerli bazar tələblərinə uyğunluq kimi üstünlüklərə malikdir. Bu seçimlər arasında qərar verərkən, avtomobil sahibləri uzunmüddətli perspektivdə rahatlıq və təhlükəsizlik amillərini də nəzərə almalıdırlar", - deyə iş adamı bildirib.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Kursk və Donbas cəbhələrində qırğın gedir, hər iki tərəf irəliləyir - yeganə ümid Bakıdır...

## Ukrayna yeni ərazilər tutur, ruslar mühasirəyə düşür, "Z" ordusu isə baş verənlərə baxmadan hücumu gücləndirir - Azərbaycan vasitəçi ola bilərmi?

**"Kurska hücumdan sonra Ukrayna məğlub edilməyənədək beynəlxalq tərəfdaşların onlara təlqin etdiyi sülh danışıqlarından söhbət gedə bilməz".**

"Yeni Müsavat"ın xəbərinə görə, avqustun 21-də Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev belə deyib. O bildirib ki, Qərbin şərtləri daxilində aparılacaq danışıqlar nəticə verməyəcək. "Ölkəmizə qarşı terror aktı hazırlayan dövlətin rəhbəri bilsin ki, Ukrayna mənasız itkilərlə hələ çox üzləşəcək, onların xeyli sayda hərbi texnikası məhv ediləcək", - D.Medvedyev vurğulayıb. Ukrayna ordusunun Kurska hücumu başladıqdan bu yana 31 nəfər ölüb, 143 nəfər yaralanıb. Yerli Səhiyyə Xidmətindən məlumat verilib. Yaralananlardan 79-u xəstəxanaya yerləşdirilib, onlardan 4-ü uşaqdır. Rusiya isə Ukraynanın işğal altında olan Çasov Yar məntəqəsindən qoşunlarını çıxararaq, Kurska daşıyıb. ABŞ-ın Müharibə Tədqiqatları İnstitutu (MTİ) bu məlumatı yayıb. Deyilir ki, 11-ci Hava Desant Qüvvələri Ukrayna ordusuna Kursk vilayətinin Sudja şəhərinin şərqində hücum etməyə cəhd edib. Amerikalı ekspertlər hesab edirlər ki, rusların qoşunlarının bir hissəsini çıxarması onların Ukrayna ərazisində zəifləməsi demək kimi qəbul olunmamalıdır. Onlar hesab edirlər ki, desant qüvvələri nizami əsgərlərdən təşkil olunsa da, aktiv döyüşlərin iştirakçısı hesab olunmurlar.



Hazırda Ukrayna qüvvələri Qluşkov rayonunda Rusiyanın Seym çayı üzərindən ponton körpülərə və mühəndis avadanlıqlarına zərbələr endirir. Peyk görüntüləri göstərir ki, Ukrayna hərbçiləri Seym üzərində ən azı bir ponton körpüsünü dağıdıblar. Bəzi rusiyalı hərbi blogerlər Ukrayna hərbçilərinin Vişnevkanı da ələ keçirdiklərini iddia ediblər. Hətta Rusiya Müdafiə Nazirliyi Vişnevka bölgəsində qazandığı uğurları üstüörtülü şəkildə etiraf etmişdi. "Rusiya Ukraynanın hücumuna cavab vermək üçün az sayda hərbi qüvvəsini Kursk bölgəsinə yerləşdirib". Bunu ABŞ Müdafiə Nazirliyinin mətbuat katibi Patrik Rayder deyib. "Mən deyərdim ki, ümumilikdə Rusiya bütün gücü ilə Ukraynanın əməliyyatına cavab verməyə çalışır. Siz də Ukraynada müəyyən uğurları görməkdə davam edirsiniz", - Rayder bildirib. Eyni vaxtda Moskva üzərində 11, Bryansk vilayətində 23, Belqorodda 6, Kaluqada 3, Kurskda 2 PUA-nın vurulduğu açıqlanıb. Bütün bu hadisələrin fonunda Kursk vilayətində Ukrayna nəinki əsirlərin mübadiləsi, həm də ərazilərin mübadiləsi üçün fond yaradıb - ukraynalı hərbi ekspert Denis Popoviç bu qənaətdədir. Popoviç bildirib ki, əməliyyatın məqsədinin Ukraynada Rusiya ordusunun ehtiyatlarını cəbhədən uzaqlaşdırmaq olduğu açıq-aydın görünür: "Strateji mənada burada məqsəd təkcə əsirlərin mübadiləsi deyil, ən azı ərazi fondu yaratmaqdır". Onun sözlərinə görə, ərazilərin mübadilə fondu yaradılmalıdır ki, Ukrayna nə vaxtsa başlayacaq müharibənin dayandırılması ilə bağlı danışıqlara güclü mövqedən daxil olsun".

Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsi faktiki olaraq sonu görünməz bir vəziyyətə gəlib. Savaş Rusiya ərazisinə keçib, nüvə təhdidləri artıb, üstəlik, Belarusdan yeni cəbhənin açılması yönündə məlumatlar var. Bu mənada suallar meydana çıxır ki, Rusiya-Ukrayna müharibəsi nə zamanadək davam edə bilər? Ən əsas sual: Rusiya lideri Vladimir Putin Bakıda olarkən Prezident İlham Əliyevlə Ukrayna məsələsinə dair də müzakirə aparılıb. Belə fikirlər səslənir ki, Rusiya-Ukrayna savaşının bitməsi üçün Bakı sülh danışıqlarının təşəbbüskarı kimi çıxış edə bilər. Bakının vasitəçiliyi uğurlu nəticələrə, ən azı atəşkəsə, danışıqların başlamasına səbəb ola bilərmi? Hərgah, tərəflər masaya oturmaqla bağlı ümidverici bəyanatlar səsləndirmirlər. Üstəgəl, Qərb münaqişənin uzanması üçün yardımları davam etdirir və Rusiyanın dərinliklərinə zərbələr endirilməsinə icaz verməkdədir. Ukraynalı hərbi-siyasi şərhçi Aleksandr Kovalenko deyib ki, bu yay biz Qərb silahlarının istifadəsində müsbət dəyişikliklər gördük. Onun fikrincə, Rusiya ərazisində tətbiq edilən Qərb silahlarının siyahısı genişləndirilir və ən yaxşı halda 2024-cü ilin sonuna qədər uzaqmənzilli silahlarla bağlı müsbət qərar da alınacaq.

**Ən son məlumatlara görə, Ukrayna Silahlı Qüvvələrin 95-ci əlahiddə hava desant briqadasının hərbçiləri rusların Kursk vilayətindəki bölmələrini mühasirəyə alıblar. "Forbes" nəşri yazıb.** "Rusiya təbliğatçıları yazır ki, Ukrayna desant qüvvələri Sudja yaxınlığında yerləşən Malaya Loknya kəndini ələ keçirmək istəyirlər. Onların bildirdiyinə görə, Ukrayna hərbçiləri Malaya Loknyaya hücum zamanı rusların bu kənd və Russkiy Poreçniy kəndi yaxınlığındakı mövqelərini keçərək, yolu kəsib və 18-ci motoatıcı diviziyanın bölmələrini operativ mühasirəyə alıblar", - nəşr bildirib. Paralel olaraq isə Kursk vilayətində kifayət qədər böyük əraziləri itirməsinə baxmayaraq, Rusiya buna elə də ciddi əhəmiyyət vermədən Donbasın işğalını davam etdirir. "BİLD" nəşrinin tanınmış analitiki Julian Repkenin fikrincə, Donetsk vilayətində Ukrayna Silahlı Qüvvələri üçün vəziyyət fəlakətlidir. Belə ki, rus ordusu əhəmiyyətli nəqliyyat qovşağının yerləşdiyi Pokrovskun 7-8 kilometrliyinə çatıb. Həmçinin bildirilir ki, rus qoşunları Toretsk şəhərinin şərqinə - Drujba və Severnı bölgələrinə doğru irəliləyib. Bu barədə "Deep State" analitik layihəsinin yenilənmiş məlumatlarında deyilir. Hələ avqustun 17-də məlum idi ki, ruslar Donetsk vilayətinin Nikolayevka kəndini, avqustun 13-də isə daha üç yaşayış məntəqəsini: Lisiçnoye, İvanovka, Svirıdonovkanı ələ keçiriblər. Bununla yanaşı, hazırda Donetsk vilayətindəki Nyu-York yaşayış məntəqəsi uğrunda döyüşlər davam edir. Ruslar Severnıda, Drujbada, Zavetnıda, Novoqrodovka və Qriqoryevka yaxınlığında irəliləyib.

**Politoloq Rüstəm Tağızadənin sözlərinə görə, Ukrayna Rusiya ilə danışıqlardan əvvəl öz mövqeyini gücləndirmək üçün əməliyyata başlayıb:** "Ukraynanın Kursk bölgəsini danışıqlara qədər saxlaya bilib-bilməyəcəyinə bir neçə amil təsir göstərəcək. Bu amillərə hərbi güc, strateji planlaşdırma və Rusiyanın cavab tədbirləri daxildir. Ukrayna öz qüvvələrinin yaxşı təchiz edilmiş, yaxşı təlim keçmiş və Kursk bölgəsində uzunmüddətli müdafiəni davam etdirməyə qadir olmasını təmin etməlidir. Bölgəni saxlamaq təkcə ilkin uğur deyil, həm də Rusiyanın potensial əks-hücumlarını dəf etmək bacarığını tələb edərdi. Eyni zamanda Kursk bölgəsi relyefinə və əsas təchizat xətlərinə yaxınlığına görə tarixən strateji məkan olub. Bu əraziyə nəzarət Ukraynaya əhəmiyyətli üstünlüklər verəcək, eyni zamanda bölgəni Rusiyanın onu geri almaq üçün intensiv səyləri üçün hədəfə çevirəcək".

**Analitikin fikrincə, Rusiya, ehtimal ki, Ukraynanın Kursk bölgəsində hər hansı irəliləyişinə aqressiv cavab verəcək və öz hərbi imkanlarından istifadə edərək nəzarəti bərpa etməyə çalışacaq:** "Ukrayna bölgədəki mövqeyini qorumaq üçün bu hərəkətləri qabaqcadan görməli və onlara qarşı durmalıdır. Danışıqların dinamikasına gəlincə, Ukraynanın Kursk vilayətini saxlamaqda uğuru Rusiya ilə danışıqların dinamikasına təsir edə bilər. Əgər Ukrayna əraziyə güclü nəzarət nümayiş etdirərsə, o, potensial olaraq daha əlverişli şərtlərə gətirib çıxara biləcək güc mövqeyindən danışıqlara başlaya bilər. Ukrayna üçün ən pis ssenari isə budur ki, əgər Rusiyanın əks-hücumları böyük olarsa və Ukrayna danışıqlardan əvvəl regiona nəzarəti itirərsə, bu, Ukraynanın mövqeyini zəiflədə və danışıqlarda daha az əlverişli şərtlərə gətirib çıxara bilər".

**Siyasi şərhçi Aqşin Kərimov isə hesab edir ki, Ukrayna qoşunları Rusiya ərazilərində məhdud irəliləyişlər əldə edib. Onun sözlərinə görə, Ukrayna Kurska müdaxilənin ilk günlərində Rusiya qoşunlarının Ukraynadakı əməliyyatlarına mənfi təsirlər yarada bilmişdi, ancaq sonrakı günlərdə Rusiyanın Ukraynaya hücum kampaniyasına əhəmiyyətli təzyiq yarada bilmədi:** "Ən son təsdiqlənmiş məlumatlara əsasən, Rusiya qoşunları Ukraynada Pakrovsk, Vuhledar, Kupyansk və Svatove yaxınlığında irəliləyib. Əslində Kursk səhnəsi Rusiya və Ukraynanı daha geniş cəbhə boyunca əməliyyatlara məcbur edir ki, bunun öhdəsindən gəlmək hər iki tərəf üçün çətindir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## Çin ABŞ-ın nüvə strategiya hesabatından ciddi narahatdır

**Çin ABŞ-ın nüvə strategiya hesabatından "ciddi narahat olduğunu" bildirib. APA "Reuters"ə istinadən xəbər verir ki, bu barədə Çin Xarici İşlər Nazirliyindən bildirilib.**

Qeyd edilib ki, Çin ABŞ-ın ölkənin nüvə silah arsenalını sürətlə genişləndirməyə yönəlmiş nüvə strategiya planını təsdiqlədiyini bildirən hesabatdan ciddi narahatdır.

"ABŞ Çin nüvə təhdidi hekayəsini yayır, strateji üstünlük əldə etmək üçün bəhanələr axtarır", - Çin Xarici İşlər Nazirliyinin sözçüsü vurğulayıb.

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# Aliment problemi qadınları və məhkəmələri bezdirib - çıxış yolu

**Ekspert:** “Tezliklə Aliment Fondu yaradılmalıdır ki, həmin kişilər özlərində məsuliyyət, cavabdehlik hiss etsinlər, məcburi şəkildə bu fonda ödənişlər etsinlər”

**Ölkədə aliment problemi kifayət qədər ciddidir. Müşahidələr göstərir ki, bu problem qadınlarla yanaşı, artıq məhkəmələri də bezdirirb.**

Cari ilin ilk 6 ayı ərzində aliment tələbinə dair 11 319 məhkəmə qərarı daxil olub.

Bu barədə APA-nın sorğusuna cavab olaraq Ədliyyə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, icraatda olan aliment işləri üzrə 4 259 nəfər axtarışdadır. İnzibati qaydada həbs olunan şəxslərin sayı 1 051 nəfər, cinayət məsuliyyətinə cəlb olunan şəxslərin sayı isə 98 nəfərdir.

Rəqəmlərdən də göründüyü kimi, məsələ artıq çox ciddidir və bu yöndə təcili addımlar atılmalıdır.

Uzun zamandır məsələnin həlli üçün Aliment Fondu yaradılması təklif də havada qalır.

Xatırladaq ki, Aliment Fondunun mahiyyəti bundan ibarətdir ki, aliment fond tərəfindən ödənilir, cavabdehlər isə vəsaiti həmin fonda köçürür, bu dövləti tələb kimi həyata keçirilir.

Dünya praktikasında isə bir sıra ölkələrdə valideyn haqlı səbəblərdən alimenti ödəyə bilmədikdə dövlət o öhdəliyi öz üzərinə götürür. Lakin borclu tərəf dövlətə borclu qalır və sonradan o borclar ödənilməlidir. Bunun üçün bir çox ölkələrdə Aliment Fondu yaradılıb.

Məsələn, Latviyada Uşaqların təminatı ilə bağlı vəsaitlərə dair Zəmanət Fondu, Böyük Britaniyada Uşaqların təminatı ilə bağlı Agentlik, İsraildə Milli Sığorta Xidməti, İspaniya və Bəhreyndə Alimentlərin tutulması üzrə Zəmanət Fondu, Polşada Dövlət Aliment Fondu, Niderlandda Aliment üzrə Federal Büro, İsveçdə Dövlət Sığorta Agentliyi, ABŞ-da Aliment orderlərinin icrası üzrə Federal Ofis və Ştatların Agentlikləri, Kanadada Aliment orderlərinin icra Agentliyi, Avstraliyada Uşaqlara Dəstək Agentliyi fəaliyyət göstərir. Ayrı-ayrı ölkələrdə fondlar müxtəlif səlahiyyətlərə malikdir və geniş funksiyalar icra edir.

Böyük Britaniya və İsraildə fondun əsas məqsədi aliment ödəməkdən yayınan şəxslərin axtarışı və ödənişlərin tutulmasıdır. Bir sıra ölkələrdə (Litva, Latviya, İspaniya, Bəhreyn, Polşa, Fransa) valideynlərdən hər hansı biri öz öhdəliklərini icra etməkdən imtina edərsə, həmin fond bu öhdəliyin icrasını öz üzərinə götürür.

Postsovet ölkələrindən Estoniyada 2017-ci ildən “Ailəvi kompensasiyalar” haqqında qanun qüvvəyə minib və Aliment Fondu da bu qanunun tələbləri əsasında fəaliyyətə başlayıb. Qazaxıstanda bu təşəbbüs reallaşmasa da, geniş müzakirə edilir.



Onu da qeyd edək ki, 2024-cü ildən Azərbaycanda alimentin minimum məbləği qaldırılıb. Belə ki, Azərbaycanda alimentin minimum məbləği və ya miqdarı 220 manatdan 235 manata qaldırılıb. “Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu”na əsasən, bu il üçün yaşayış minimumu uşaqlar üçün 235 manat məbləğində müəyyən edilib.

Aliment uşağın sayından asılı olmayaraq, valideynin daimi qazancının və ya başqa gəlirlərinin müəyyən hissəsi qədər tutulur. Əgər valideynin qazancı qeyri-müntəzəm olarsa, yaxud tərəflərdən birinin marağını əhəmiyyətli dərəcədə pozduğu halda alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilə bilər.

Alimentlə bağlı qətnamənin icrasını aliment ödəməli olan valideynin yaşayış yeri üzrə İcra şöbələri və Probasiya xidməti həyata keçirir. İlk növbədə, cavabdehə icraata başlamaq haqqında qərar göndərilir və icranı 10 gün müddətinə könüllü təmin etməsi təklif olunur. Qərar könüllü icra olunmadıqda şəxsin mülkiyyətində hər hansı əmlakın olub-olmamağı barəsində müvafiq orqanlara sorğu göndərilir. Əmlakı müəyyən olunarsa, tələb onun əmlakına yönələ bilər. Həmin şəxsin rəsmi iş yerinin olub-olmamağı da müəyyənləşdirilir. Şəxsin barəsində məcburi gətirmə və axtarış tədbirləri, ölkədən çıxışına məhdudiyyət qoyulması kimi tədbirlər də görülə bilər. Belə ki, alimentin üzrsüz səbəbdən icra edilməməsinə görə borclu şəxslər İnzibati Xətalar Məcəlləsinin 528-ci maddəsi ilə məsuliyyətinə cəlb oluna bilərlər. Bundan da nəticə çıxarmayan borcluya sonuncu dəfə xəbərdarlıq edilir, barəsində materiallar toplanılaraq Cinayət Məcəlləsinin 306.1 maddəsi ilə cinayət işinin açılması üçün Ədliyyə Nazirliyinə təqdimat verilir. Həmin maddə ilə borclu cərimə, ictimai işlər, islah işləri və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Beləliklə, qanunda borclunun qətnaməni icra etməsi üçün kifayət qədər məcburiyyət tədbirləri, etmədiyi təqdirdə isə cəza növləri mövcuddur. Lakin ölkədə aliment ödəməkdən yayınanların sayı durmadan artır.

Bəs çıxış yolu nədir? Nə etmək lazımdır ki, problem çözülsün?

**Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin rəhbəri Zenfira Mustafayeva mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb:** “Bəli, aliment məsələsi ilə bağlı ölkəmizdə ciddi problemlər var. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova da Milli Məclisdəki çıxışında bildirmişdi ki, Aliment Fondu yaradılmalıdır və bu məsələni gecikdirmək olmaz, çünki daha çox ailələrdəki uşaqlar bundan əziyyət çəkir. Fondun yaradılmaması, bu məsələnin uzadılması ona gətirib çıxarır ki, məsuliyyətə cəlb olunmalar olsa belə, heç bir nəticə yoxdur. Bunun da əsas səbəbi ondan ibarətdir ki, əksər boşanmış valideynlər işləmir və yaxud maaşlarını gizlədirlər və yaxud da ikinci dəfə ailə qururlar və bəhanə gətirirlər ki, heç ikinci ailələrini dolandıra bilmirlər və sairə.

Hesab edirəm ki, biz ilk növbədə boşanmaların sayının azalması istiqamətində tədbirlər görməliyik. Gün ərzində təşkilatımıza təxminən 5-6 nəfər boşanma ilə bağlı müraciətlər edirlər. Səbəbləri araşdıranda görürük ki, burada əsas amillər erkən nikah, məişət zorakılığı, ailədə iqtisadi-sosial problemlərdir. Xüsusən də təhsilsiz, işsiz olan qadınlar aliment problemindən çox əziyyət çəkir. Doğrudur, bu cür qadınlar bizim təşkilata müraciət edəndə biz onları hansısa işlərə və yaxud kurslara cəlb edir, dəstək olmağa çalışırıq, amma bu, onların maddi vəziyyətlərinə o qədər də təsir göstərmir. Ona görə də onlar alimentə ümid bəsləyirlər. Alimenti isə vaxtında ala bilməyəndə və yaxud qarşı tərəf, ümumiyyətlə, aliment verməkdən yayındıqda ortada çox ağır vəziyyət yaranır. Buna görə də Aliment Fondu yaradılmalıdır ki, qadınlar, uşaqlar pis vəziyyətdə qalmasın.

Bəzən kişilər də bizim təşkilatımıza müraciət edirlər. Soruşurlar ki, “necə edim ki, aliment verməyim?” Buradan da aydın olur ki, dar düşüncəli insanlar çoxdur. Həmin şəxslər elə düşünürlər ki, alimenti qadın üçün ödəyirlər, amma bu pul onların övladları, onların yaşayışı, gündəlik tələbatlarının ödənilməsi üçündür. Yəni ailə, övlad məsuliyyəti hiss etməyən ata əlbəttə ki, aliment ödəmək məsuliyyətindən qaçmağa çalışacaq. Ona görə də tez bir zamanda Aliment Fondu yaradılmalıdır ki, həmin kişilər özlərində məsuliyyət, cavabdehlik hiss etsinlər, məcburi şəkildə bu fonda ödənişlər etsinlər.

Bir sözlə, hesab edirəm ki, ölkədəki aliment problemindən çıxış yolu Aliment Fondunun yaradılmasıdır".

**❑ Xalidə GƏRAY, “Yeni Müsavat”**




## Qobuda saxlanılan şəxsdə 2 kq narkotik aşkarlandı

**Qobu qəsəbəsində saxlanılan şəxsdə 2 kiloqram narkotik vasitə aşkarlanıb. APA DİN-ə istinadən xəbər verir ki, Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə növbəti əməliyyat həyata keçirilib.**

Bölməyə 1980-cı il təvəllüdlü Sergey Koçetkovun Qobu qəsəbəsində narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirdiyi barədə məlumat daxil olub. Həmin şəxs saxlanılan zaman ondan 2 kiloqram narkotik vasitə heroin və psixotrop maddə metamfetamin aşkarlanaraq götürülüb. S.Koçetkov ifadəsində narkotikləri sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşının vasitəsi ilə satmaq niyyəti ilə əldə etdiyini bildirib. Araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Əcnəbilərlə nikah niyə problemə çevrilib? - təhlil

## Qadınlarımız məlumatsız, kişilər isə ehtiyatsızdır; nəticədə isə...

**Məlum olduğu kimi, bu ilin iyun ayında Azərbaycanda qanunsuz yaşayan əcnəbilərin ölkə vətəndaşı ilə nikaha daxil olması qadağan edildi. Bununla bağlı Ailə Məcəlləsinə dəyişiklik layihəsi Milli Məclisin növbədənkənar sessiyasının plenar iclasında III oxunuşda müzakirəyə çıxarıldı və müzakirələrdən sonra dəyişiklik layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul olundu.**



Sənəddə qeyd edilib ki, Azərbaycan ərazisində olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız uzun müddət yaşayan əcnəbilərin bir çoxu ölkə ərazisini tərk etməmək üçün son anda mümkün asan vasitə olaraq Azərbaycan vətəndaşı ilə nikah bağlamağı seçirlər. Bu hal Azərbaycan vətəndaşı ilə nikahda olan əcnəbilərə münasibətdə qanunvericiliyin müəyyən etdiyi imtiyazlardan sui-istifadə edilməsi riski yaratmaqla yanaşı, qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyinə mənfi təsir göstərirdi.

Təqdim olunan qanun layihəsi də məhz ölkəmizdə qanunsuz miqrantların müəyyən edilməsi və qanunsuz miqrasiyanın qarşısının alınması, o cümlədən miqrasiya qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hazırlanıb.

Belə ki, layihədə Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları əks etdirən 12-ci maddəsinə dəyişiklik edilməsi təklif olunur. Bu dəyişikliyə əsasən aralarında nikahın bağlanmasına yol verilməyən şəxslərin sırasına ikisindən biri və ya hər ikisi ölkə ərazisində qanunsuz olan və yaxud yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin də əlavə edilməsi nəzərdə tutulur.

Elə Ədliyyə Nazirliyinin açıqladığı sonuncu statistikada da qeyd edilir ki, 2022-ci ildə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə bağlanmış 187 nikahın pozulması halı qeydə alınıb. 2021-ci ildə belə boşanmaların sayı 149, 2017-ci ildə 195 olub. Evlənənlərlə boşananların sayını müqayisə etdikdə isə bəlli olur ki, ailə quranların təxminən dörddə biri - 25 faizə qədəri boşanır. 2024-cü ildə Azərbaycan vətəndaşı ilə nikah əsasında müvəqqəti və daimi yaşama icazəsi alan əcnəbilərin sayı 6.680 nəfər, 2023-cü il ərzində isə 17.561 olub. Bu rəqəmlər isə onu deməyə əsas verir ki, xarici ölkələrə gedib, yaşayış icazəsi almaq üçün xarici vətəndaşlarla saxta nikaha girən azərbaycanlılar olduğu kimi, eyni üsulu istifadə edən əcnəbilər də var.

### Xarici ilə evlənib, sonra niyə boşanırlar - təkcə mental fərqlilik, yoxsa..?

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, boşanmaların əksəriyyəti bu evliliklər qeyri-səmimi münasibətlər əsasında qurulduğuna görə baş verir. Digər problem xarici vətəndaşla ailə quran bəzi Azərbaycan vətəndaşlarının nikah sənədinə qeyd-şərtsiz qol çəkmələridir. Bəzən həmin ölkənin qanunvericiliyində elə nüanslar olur ki, onlar bizim ölkənin qanunvericiliyi ilə uzlaşmır. Əcnəbi ilə evlənən azərbaycanlı xanım xarici ölkədə boşanır və bizim qanunlardan irəli gələn tələbləri orada tətbiq etmək istəyir. Bu isə problem yaradır.

Müraciətlərin çoxu isə daha çox uşaq tələbi ilə bağlı olur.

Boşanmalarla bağlı ölkəmizdə dəqiq statistika aparmaq da mümkün olmur. Çünki xarici ölkədə boşanma olduqda və vətəndaş bununla bağlı məlumat vermədikdə dövlət qurumu xaricdəki boşanmalarla bağlı statistika apara bilmir.

Əcnəbilərlə ailə quran azərbaycanlı kişilər əsasən Rusiya, Gürcüstan və Ukrayna vətəndaşı olan qadınlarla nikah bağlayıblar. Azərbaycanlı qızlar daha çox Türkiyə, Gürcüstan vətəndaşı olan azərbaycanlılara üstünlük verirlər, bu isə əcnəbilərlə nikahların böyük faizini təşkil edir. Amma bununla yanaşı, Avropa vətəndaşları, zənci və ərəblərlə ailə quran xanımlarımız da az deyil.

Amma qarışıq etnik nikahlarda özünü büruzə verən problemlər digər nikah növlərində müşahidə edilən problemlərdən çox da fərqli deyil. Cütlüklərin mənsub olduğu mədəniyyətlər arasındakı fərqlər müəyyən bir müddət sonra problemlərin meydana gəlməsinə səbəb olur. Xüsusilə uşaqların tərbiyəsi, valideynlərindən hansının milli mənsubiyyəti və mədəniyyətini qəbul edəcəyi ilə bağlı məsələlər problemlərin ön cərgəsində durur. Qarışıq etnik nikahların ən böyük təhlükələrindən və risklərindən biri də ər-arvad arasında meydana gələn mübahisə, münaqişə və boşanma zamanı uşaqların hansı valideynlə və hansı ölkədə qalması ilə bağlıdır. Lakin bütün bu növ nikahların uğursuzluğa düçar olacağını düşünmək və bunu ümumiləşdirmək səhv yanaşmadır.

Bəzi gənclər işləmək və ya təhsil almaq üçün müxtəlif ölkələrdə yaşamaq məcburiyyətində qalırlar. Onlar uzun müddət həmin ölkələrdə yaşayırlarsa, müxtəlif insanlarla tanış olurlar və bu da sonda nikaha gətirib çıxarır. Son illər yalnız azərbaycanlı qızlar deyil, eyni zamanda azərbaycanlı oğlanlar da əcnəbi qızlarla ailə qurmağa üstünlük verirlər.

Statistik məlumatlara görə, Azərbaycana gündə 4-5 min əcnəbi gəlir.

Miqrantların yalnız 25 faizi Azərbaycana işləməyə, qalanları isə təhsil, istirahət və ölkə vətəndaşları ilə ailə qurmağa gəlirlər.

### Bu "ağ atlı oğlandan" boşanmaq da var...

Bəli, əcnəbilərlə evlilik bəzən röya kimi başlasa da, kabusla bitir. Ekspertlər hesab edir ki, bu bəlanın kökündə əcnəbiyə ərə gedən qızların evləndiyi adam barəsində məlumatsız olmaları durur. Belə ki, onlar həmin adamın kim olduğunu bilmədən, maddi imkanına, azərbaycanlı oğlanlardan bir qədər fərqləndiyinə görə ailə həyatı qururlar.

Əcnəbilərlə qurulan nikahların çox az bir qismi həqiqətən tamamilə əcnəbi vətəndaşlarla, məsələn, ərəb, amerikalı və ya digər millətlərdən olanlarla nikahlardır: Əcnəbilərlə qurulan nikahlar zamanı həmin şəxslərin milliyyəti araşdırılanda üzə çıxır ki, bunların əksəriyyəti Rusiyada, Gürcüstanda çoxdan yaşayan, həmin ölkələrin vətəndaşlığını qəbul edən azərbaycanlılardır. İkinci yerdə isə dil, din baxımından bizə yaxın olan ölkələrdən, o cümlədən İrandan, Türkiyədən və digər dövlətlərdən olanlardır. Çox az bir qism nikahlar var ki, həqiqətən tamamilə əcnəbi vətəndaşlarla qurulur.

Bəzən nikahları ölkənin sərhədlərindən kənarda da bağlayırlar. Xarici vətəndaşlarla nikahın bağlanması Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənir. Belə nikahlar ölkənin özündə, diplomatik nümayəndəliklərdə və konsulluqlarda bağlana bilər. MDB ölkələrinin vətəndaşları ilə nikahı isə rayonlarda olan qeydiyyat şöbələri də bağlaya bilirlər.

Nikah bağlanmadıqda qadın əmlak hüququndan məhrum olur. Boşananda uşağa görə aliment ala bilmir. Bu zaman onların hüquqlarını müdafiə etmək də çətinləşir. Amma bu cütlüklərin boşanmasında ortaya çıxan problemlər də var. Tutaq ki, şəxs öz ölkəsində işləyirdi, əcnəbi ilə ailə qurandan sonra yaşadığı ölkədə iş tapa bilmir və yaxud bunun üçün uzun müddət tələb olunur. Ölkəsindəki aktiv həyatını başqa yerdə reallaşdıra bilmir. Bu baryeri keçə bilməyənlər əksər vaxtlarda boşanır. İstənilən halda fərqli mədəniyyətləri və əmək qabiliyyətlərini reallaşdırmaq ya mümkün olmur, ya da çətinliklə həyata keçir. Əcnəbi ilə nikaha baxış məsələsində də çox diqqətli olmalıyıq. Qadın var ki, əcnəbi ilə ailə həyatı qurandan sonra geri gələ bilmir, illərlə doğmalarını, ailəsini və yaxınlarını görmür. Övlad məsələsi də burada rol oynayır. Çox vaxt ana ölkənin qayda-qanunlarına və uşağını həmin ölkə vətəndaşı olduğuna görə vətəninə gətirə bilmir. Bu tip hüquqi çətinliklər var ki, nikaha girən tərəflər əvvəlcədən bu məlumatlardan xəbərdar olurlar. Bundan əlavə, qeyri-rəsmi nikaha girənlər qanunsuz miqrantlara çevrilirlər. Bu kimi hallar isə depressiya yaradır.



Ramin Malxasov

## Zaqatala sakini Göyçayda güllələnərək öldürüldü

**Avqustun 20-də saat 16 radələrində Göyçay rayonunda avtomobildə üzərində xəsarət olan meyit aşkarlanması barədə polisə məlumat daxil olub. Daxili İşlər Nazirliyi mətbuat xidmətinin regional qrupundan bildirilib ki, araşdırmalarla həmin şəxsin 37 yaşlı Ramin Malxasov olduğu müəyyən edilib.**

Göyçayda avtomobilində meyiti tapılan şəxsin Zaqataladan olduğu məlum olub.

Qətlə yetirilən 37 yaşlı Ramin Malxasov Zaqatalanın Yuxarı Tala kənd sakinidir.

Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 149 (8522) 22 avqust 2024

# Usta-müştəri davaları - rəsmi müqavilə bağlanmalıdırmı?

**Ölkədə heç şübhəsiz ki, hər birimiz ev və ya maşın təmir edərkən ustanın yarıtmaz iş görüməsi ilə rastlaşmışıq. Həmçinin ustalar da onun pulunu kəsən, ödənişini etməyən müştərilərlə mütəmadi üzləşirlər. Bir çox hallarda bu səbəbdən davalar da olur.**

## Sahib Məmmədov: "Mülki hüquqi müqavilədə mübahisələrin həlli qaydası nəzərdə tutulmalıdır"
## Xalid Kərimli: "Mübahisələrin ortaya çıxmaması üçün vətəndaşlar şifahi razılaşmalara etibar etməməlidir"

Avqustun 20-də usta-müştəri davası güllələnmə ilə nəticələnib.

Biləsuvar rayonunun Aşağı Cürəli kənd sakini 1981-ci il təvəllüdlü Mayis Nəsirov hər iki ayağından odlu silah xəsarəti alıb. O, rayon mərkəzi xəstəxanasına hospitalizasiya olunub. Hadisəyə səbəb usta işləyən Mayil Nəsirovun evini təmir etdiyi şəxsdən qalan borcu istəməsi olub. Bir müddət borclu qalmış ev yiyəsinin ustanı kənd məscidinin qarşısına çağırdığı, orada onun ayaqlarına ov tüfəngindən atəş açdığı bildirilir.

Məlumata görə, ev sahibinin ustaya 1000 manat borcu olub.

DİN-in mətbuat xidmətinin Lənkəran regional qrupundan APA-nın cənub bürosunun sorğusuna cavab olaraq bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən Aşağı Cürəli kənd sakini, 1978-ci il təvəllüdlü Zabir Qurbanxan oğlu Soltanov polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılaraq istintaqa təhvil verilib.

Usta-müştəri davalarının əsas səbəbi odur ki, görülən işlərin keyfiyyətinə, təhvili vaxtına, habelə müştərinin ödəyəcəyi məbləğə dair hər hansı bir müqavilə, rəsmi öhdəlik olmur. Bu səbəbdən borcunu ala bilməyən usta və ya narazı qalan müştəri problem hüquqi yolla aradan qaldıra bilmir, nəticədə iş cinayətə gətirib çıxara bilər.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının İcraiyyə Komitəsinin sədri, hüquqşünas Sahib Məmmədov** "Yeni Müsavat"a bildirdi ki, bu kimi məsələlər Mülki Məcəllə ilə tənzimlənir. Ekspert qeyd etdi ki, mülki hüquqi münasibətlər rəsmiləşdirilmədikdə mübahisələrin ortaya çıxması labüddür: "Hətta müqavilə olduqda da mübahisələr ortaya çıxa bilər. Əqd bağlandıqda mülki hüquqi müqavilədə mübahisələrin həlli qaydası nəzərdə tutulmalıdır. Müqavilədə görülən işlər sadalanmalıdır, müddəti, keyfiyyəti, qiyməti, ödəniş qaydası, fors-major halları göstərilməlidir. Müqavilədə o cümlədən mübahisələrin həlli qaydası göstərilməlidir ki, mübahisə yarandıqda danışıqlar yolu ilə, bu mümkün olmadıqda isə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll olunsun. Mübahisənin konkret hansı məhkəmədə həll olunacağı da qeyd olunmalıdır. Bu yoxdursa, söhbət qanunsuz sövdələşmədən gedir. Bu halda, tərəflərdən birinin, məsələn, zərərçəkmiş tərəfin sübutları varsa, məhkəməyə müraciət edə bilər. Bu, konkret mülki hüquqi münasibətlər olduğu üçün Dövlət Əmək Müfəttişliyi xidməti bu kimi məsələlərə qarışa bilmir. Yoxlamalara məhdudiyyət qoyulub. Müraciət olduqda belə onlar üçün çox çətindir. Faktiki əmək münasibətləri ortaya çıxsa da, əslində söhbət mülki hüquqi münasibətdən gedir. Təcrübədə bu kimi məsələlərin həlli çətindir. Bu məsələlər iki yolla həll oluna bilər. İşə cəlb edən tərəf hüquqi şəxsdirsə, vergi uçotunda durubsa, digər tərəflə ya mülki hüquqi müqavilə ya da əmək müqaviləsi bağlamalıdır".



**İqtisadçı ekspert Xalid Kərimli isə qeyd etdi ki, əmək münasibətlərinin rəsmiləşdirilməsi həm də vergi amilini önə çıxarır. "Yeni Müsavat"a açıqlamasında ekspert bu kimi məsələlərin Mülki Məcəllə ilə tənzimləndiyini diqqətə çatdırdı**: "Söhbət işverən-işçi münasibətindən getmir. Mülki müqavilənin bağlanması mütləq yazılı olmaya bilər. Mülki Məcəlləyə görə, əqdin bağlanması şifahi formada da ola bilər. Mübahisələrin ortaya çıxmaması üçün vətəndaşlar şifahi razılaşmalara etibar etməməlidirlər. Bu o demək deyil ki, müqavilə bağlanmadığı təqdirdə xidmət göstərilə bilməz, yaxud borcun tanınması mümkün deyil. Sadəcə, görülən işin, xidmətin dəqiq müəyyənləşməsi, sonradan mübahisələrin yaranmaması üçün öncədən yazılı razılaşmanın olması məqsədəuyğundur. Bununla mübahisələr tamamilə aradan qalxmayacaq. Amma mübahisələri sivil qaydada həll etmək üçün müqavilə bağlanması nəzərdə tutulur. Əmək Məcəlləsinə görə, işçi ilə mütləq müqavilə bağlanmalıdır. Bu həm də Vergi Məcəlləsinin tələbidir. Buna baxmayaraq, müqaviləsiz məşğulluqla rastlaşırıq. Yeni tələbin olması, bunun tam olaraq icra edilməsi demək deyil. Xidməti müqavilədə nəzarət imkanları məhduddur, müddətli olduğu üçün nəyisə sübut etmək çətindir. Eyni zamanda kiçik həcmli müqavilə olması amilini də nəzərə almaq lazımdır. İstilən halda müqavilənin olmaması xidmətin göstərilməsini qanunsuz etmir, yaxud bu vergi ödənməməlidir anlamına gəlməməlidir. Vətəndaş qazancından vergi ödəməlidir. Əmək müqaviləsi olduqda işəgötürən bu hesabatı təqdim edir. Digər halda isə vergi müqaviləyə daxil edilir, xidmət göstərən şəxs xidməti göstərdikdən sonra vergi hesabatını təqdim edir. Vergi öhdəliyi ortaya çıxdığına görə sənədlərin olması vətəndaşın gələcəkdə vergi ilə münasibətlərdə probleminin aradan qalxmasına gətirib çıxara bilər".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# 6 ayda 36 partlayış olub, 22 nəfər ölüb

## Təbii və texnogen mənşəli hadisələr nəticəsində isə 55 nəfər həlak olub




**Azərbaycanda 2024-cü ilin I yarımilliyi ərzində respublika ərazisində 36 partlayış hadisəsi baş verib. APA xəbər verir ki, bu barədə FHN-dən bildirilib.**

Bu, 2023-cü ilin I yarımilliyi ilə müqayisədə 11 hadisə və ya 44% çoxdur. Partlayışlar zamanı 22 nəfər həlak olub, 65 nəfər xəsarət alıb. 2024-cü ilin I yarımilliyi ərzində respublika ərazisində 7050 təbii və texnogen mənşəli hadisə baş verib. Məlumata görə, bu, 2023-cü ilin I yarımilliyi ilə müqayisədə 26 hadisə və ya 1% çoxdur. Baş vermiş təbii və texnogen mənşəli hadisələr nəticəsində 55 nəfər həlak olub, 212 nəfər xəsarət alıb. Nazirliyin xilasedicilər tərəfindən 100 nəfər xilas edilib, 565 nəfər təxliyə olunub.



# Gəncə və Göygöldə kütləvi zəhərlənmə çirklənmiş sudan baş verib

**Bir neçə gün əvvəl Gəncə şəhərində keçirilən yas mərasimində və Göygöldə fəaliyyət göstərən ictimai iaşə müəssisələrində ("Araz", "Xanlar Yurdu", "Ağ Ayı") baş verən kütləvi zəhərlənmə hadisələri ilə bağlı Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşlarından ibarət mütəxəssis qrupu tərəfindən aidiyyəti qurumların əməkdaşları ilə birgə müvafiq araşdırmalar aparılıb. Bu barədə APA-nın sorğusuna cavab olaraq AQTA-dan məlumat verilib.**

Hadisələrin qida zəhərlənməsi ilə bağlı olmadığı məlum olub. Çoxsaylı insanın sağlamlığına zərər verən hadisələrin məişətdə istifadə edilən suyun ikincili çirklənməsi nəticəsində baş verdiyi müəyyən edilib.

Faktla bağlı aidiyyəti orqanlar tərəfindən araşdırmalar davam etdirilir. Araşdırmaların nəticələri ilə bağlı əlavə məlumat veriləcək.

YENİ MÜSAVAT

Son səhifə

N 149 (8522) 22 avqust 2024

## Bunları bilirsizmi?

Avqust

* Gün ərzində kofeni 1 dəfədən artıq içməyin.
* Dərmanı soyuq su ilə içməyin.
* Axşam saat 5-dən sonra yemək yeməyin.
* Yağlı yeməyi çox az qəbul edin.
* Suyu daha çox səhər, daha az axşam için.
* Yüklənən mobil telefondan uzaq durun.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.
* Dərman içəndən sonra bir müddət uzanmayın.
* Telefonun enerjisi 1 və ya 2 xətt qalıbsa, ondan istifadə etməyin. Çünki bu zaman telefonla danışanda radiasiya 1000 dəfə artıq təsir göstərir.
* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Dəri qış ərzində bir qədər solur və təravətini itirir, bunun qarşısını almaq üçün çimməndə dərini bərk sürtmək və təzadlı gah soyuq, gah da isti duş qəbul etmək lazımdır. Bu, qan dövranını yaxşılaşdırır və solğunluğu aradan qaldırır.
* Xörək hazırlayarkən çatlamış əllərinizə işarəsi xiyar, pomidor, kartof püresi çəkməyi, kartof bişirilmiş suda əllərinizi yaxalamağı unutmayın.
* Əlləriniz çox kobudlaşmış, dırnaqlarınız sınmışsa, qızdırılmış günəbaxan yağında 10-15 dəqiqə saxlayın. Sonra əllərinizi yumayın, ancaq əski ilə silin.

## Yeni araşdırmanın nəticələri açıqlandı: rəqəmsal asılılığın səbəbləri nədir?

**Türkiyənin İnformasiya Texnologiyaları və Rabitə İdarəsi tərəfindən ölkədə orta məktəb və lisey şagirdlərinin rəqəmsal oyun vərdişlərini müəyyən etmək üçün aparılan araşdırmanın nəticələri açıqlanıb. Nəticələrə əsasən, orta məktəb və lisey şagirdlərinin rəqəmsal oyun aludəçiliklərinə təsir edən amillər tənhalıq və can sıxıntısıdır. Orta məktəb səviyyəsində 11 min 891, lisey səviyyəsində 8 min 493 olmaqla, 20 min 384 şagirdin qatıldığı araşdırma çərçivəsində rəqəmsal oyun, internet və sosial media asılılığı ilə xoşbəxtlik, kiberzorakılıq, can sıxıntısı, stres və tənhalıq halları tədqiq edilib.**

Nəticədə, getdikcə artan sosial media asılılığı ilə bağlı mühüm məqamlar üzə çıxıb. Lisey şagirdlərinin 50 faizinin, orta məktəb şagirdlərinin isə 35 faizinin sosial media asılılığı riski altında olduğu müəyyən edilib.

Həmçinin rəqəmsal oyun asılılığına təsir edən amillər də məlum olub. Tənhalıq, can sıxıntısı, xoşbəxtlik, internet və sosial media asılılığı və kiberzorakılıq ən çox təsir edən amillər sırasında yer alıb. Tələbələrin xoşbəxtlik səviyyələri, tənhalıq və can sıxıntısı kimi amillər rəqəmsal oyun asılılığının səviyyəsini artırdığı halda, xoşbəxtlik artdıqca, oyun asılılığının səviyyəsinin də azaldığı müşahidə edilib. İnternetdən istifadənin artması ilə şagirdlərin 10 faizinin ortasəviyyəli kiberzorakılığa məruz qaldığı, yüksək səviyyəli kiberzorakılığın isə nadir baş verdiyi müəyyən edilib.

Araşdırmaya əsasən, tənhalıq hissinə orta məktəb və lisey şagirdlərində tez-tez rast gəlindiyi halda, lisey şagirdlərində narahatlıq səviyyəsinin orta məktəb şagirdlərinə nisbətən daha yüksək olduğu məlum olub.

# Stresi aradan qaldırmaq üçün rasionu dəyişmək lazımdır



**Narahatlıq və həyəcanın öhdəsindən gəlmək üçün dərhal dərman almağa ehtiyac yoxdur, rasionunuzu tənzimləməyə başlaya bilərsiniz. Bu barədə rusiyalı psixoterapevt, tibb elmləri namizədi, Federal Qidalanma və Biotexnologiya Araşdırma Mərkəzinin klinik qidalanma klinikasının diaqnostika şöbəsinin həkimi Oleq Qladışev hansı qidaların insanları sakitləşdirməyə və stresi aradan qaldırmağa kömək etdiyi barədə danışıb.**

Mütəxəssisin fikrincə, şokolad kimi sürətli karbohidratlar stresin dərhal qarşısını almağa kömək edir:

"İdeal olaraq, tərkibində 70% kakao olan tünd şokoladı seçin. Ümumiyyətlə, rasion elə qurulmalıdır ki, tərkibində həmişə stres və narahatlığın qarşısını almağa kömək edən qidalar olsun. Bundan ötrü gündəlik menyuya ət daxil edilməlidir. O, yavaş-yavaş həzm olunur və enerjini tədricən buraxır".

"Qarabaşaq və yulaf yarması da pis əhvali-ruhiyyəni aradan qaldırmağa kömək edir. Onların tərkibində əhvali-ruhiyyəni yaxşılaşdıran sevinc hormonu olan serotoninin sələfi olan triptofan var. Bundan əlavə, süd məhsullarını da unutmayıb. Onlar bağırsaq mikroflorasına faydalı təsir göstərir və immunitet sistemini gücləndirirlər", - deyə Qladışev fikrini tamamlayıb.



## 42 qadının qatili olan keniyalı manyak həbsxanadan qaçdı

**Keniyada 13 kişi polis bölməsindən qaçıb. Qaçanlardan biri qadınların silsilə qətllərində şübhəli bilinir. Bu barədə "BBC" məlumat yayıb. Keniya polisinin məlumatına görə, məhkəmə nəzarətində olan 13 nəfər paytaxt Nayrobidə polis bölməsindən qaçıb. Qaçaqlar arasında Eritreyadan olan 12 qeyri-qanuni miqrant və seriyalı qətllərdə şübhəli bilinən bir Keniya vətəndaşı var.**

Gecə məhbuslar həbsxana kamerasının tavanındakı polad torları yarıb hasarın üstündən keçə biliblər. Hüquq-mühafizə orqanlarının əməkdaşları yalnız səhər yeməyi gətirən zaman onların qaçdıqlarını biliblər. Bundan əvvəl qaçanlar arasında olan 33 yaşlı Keniyalı Haluşa son iki ildə həyat yoldaşı da daxil olmaqla 42 qadını qətlə yetirdiyini etiraf etmişdi. Lakin onun vəkili bildirib ki, pul almaq üçün müvəkkilinə işgəncə verilib.

Avqustun 16-da məhkəmə polis araşdırmasını tamamlamaq üçün Haluşanın 30 gün müddətinə polis nəzarətində saxlanmasına qərar verib.

## Əfqanıstanda saqqal saxlamaq istəməyən 280-dən çox polis işdən çıxarılıb

**Radikal "Taliban" hərəkatının Əfqanıstanın müvəqqəti hökumətində yaratdığı Şərin Qarşısının Alınması və Fəzilətin Təbliği Nazirliyi saqqal uzatmaq əmrinə tabe olmayan və bununla da "İslam qanunları"nı pozan 280-dən çox polis əməkdaşını xidmətdən uzaqlaşdırıb.**

Bu barədə "Reuters" agentliyi məlumat yayıb. Qeyd olunub ki, ölkədə "İslam qanunları"na və əfqan adət-ənənələrinə əməl olunması uğrunda aparılan mübarizə çərçivəsində 2023-cü ildə ölkədə qeyri-etik hərəkətlərə görə 13 mindən çox insan saxlanılıb, onların yarıdan çoxu məhkəmə qarşısına çıxarılıb. Bundan əlavə, 21328 musiqi aləti məhv edilib, yerli bazarlarda çəkilişləri həyata keçirilən qeyri-etik və yolverilməz filmlərin satışı dayandırılıb.



## Rusiyada 350 milyon il əvvəl mövcud olmuş isti dənizin izləri aşkarlanıb

**Rusiyanın Novosibirsk Neft və Qaz Geologiyası və Geofizikası İnstitutunun alimləri Zavyalovo kəndi yaxınlığında aparılan çöl işləri zamanı təxminən 350 milyon il əvvəl bu ərazidə isti dənizin mövcudluğunu sübut edən mərcan qalıqları aşkarlayıblar.**

Bu barədə institutun əməkdaşı, geologiya-mineralogiya elmləri namizədi Yana Fomina TASS agentliyinə məlumat verib. "Biz əvvəllər bu qədər mərcan aşkarlamamışdıq. Tapıntı kifayət qədər unikaldır. Bu, isti dənizlə əlaqəli həm koloniyalarla böyüyən, həm də tək böyüyən mərcanların yerləşdiyi kifayət qədər böyük bir karxanadır. Belə mercanlar yalnız isti dəniz hövzələrində bitirlər", - Fomina bildirib.

Alimlər güman edirlər ki, təxminən 350 milyon il əvvəl bu yerdə mövcud olan qədim dənizin yaxınlığında vulkanik proseslər baş verib. Beləliklə, dəniz hövzəsi məhz vulkan hesabına qızıb. Bu, su hövzəsində istisevər faunanın çoxalmasına şərait yaradıb. Fomina qeyd edib ki, yaxın vaxtlarda alimlər əldə edilmiş nümunələrin ətraflı tədqiqinə və daha dəqiq tarixinin müəyyən edilməsinə başlamağı planlaşdırırlar. Tədqiqatçının sözlərinə görə, aşkarlanmış qalıqlar Paleozoy erasının dördüncü geoloji dövrü olan Devon dövrünə aiddir. Devon dövrü Yer üzərində həyatın inkişafı tarixində biomüxtəlifliyin pik nöqtələrindən birinə təsadüf edir. Devonda ilk quru bitkiləri, amfibiyalar, həşəratlar meydana gəlib. Dəniz onurğasızları arasında mərcanlar, ikitayqapaqlı və qarınayaqlı mollyuskalar böyük inkişafa nail olurlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500